Xalqın qəzeti!

# Xalq qəzeti

№ 108 (30802) 25 may 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Bakı–Tbilisi–Ceyhan neft kəmərinin 20 yaşı tamam oldu



**Azərbaycanın neft strategiyasının təntənəsi olan Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac boru kəməri ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun təminatına mühüm töhfələr verir. Xəzər regionundan dünyaya qapı açan bu nəhəng enerji dəhlizi düz 20 ildir ki, sabit və ahəngdar rejimdə fəaliyyət göstərərək Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan xam nefti dünya bazarlarına çatdırır.**

Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirən Bakı – Tbilisi –Ceyhan əsas ixrac boru kəmərinin ideya müəllifi isə ümummilli lider Heydər Əliyevdir. Məlum olduğu kimi, Ulu öndərin işləyib hazırladığı yeni neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin etibarlı, şaxələndirilmiş ixrac boru kəmərləri sistemi ilə dünya bazarına nəqli ilə bağlı idi. Heç şübhəsiz, bu məsələdə ölkəmizin maraqlarının qorunması xüsusi aktuallıq kəsb edirdi.

**(ardı 7-ci səhifədə)**

# Aİ–Macarıstan: Dəyərlərin dialoqu

*“Qoca qitə”nin seçkilər ərəfəsində gərgin gündəmi*



**Avropa Parlamenti seçkiləri öncəsi gündəmə gələn məsələ Aİ-nin ortaq prinsipləri və institutlarının gələcəyi ilə bağlıdır. 2025-ci ilin yayına doğru irəlilədiyimiz bir dövrdə Avropa İttifaqında (Aİ) siyasi dinamika güclənir. 7–9 iyun tarixlərində keçiriləcək Avropa Parlamenti seçkiləri üzv ölkələrin Aİ ilə qarşılıqlı münasibətlərindəki mövcud gərginliklərin daha da aydın görünməsinə səbəb olur. Bu kontekstdə Macarıstan məsələsi yenidən ön plana çıxıb.**

Avropa İttifaqı Şurasında 27 may 2025-ci il tarixində keçirilməsi planlaşdırılan iclas Aİ-nin institusional tarixində mühüm mərhələlərdən biri kimi diqqət çəkir. Gündəmdə olan əsas məsələlərdən biri Macarıstanın Avropa İttifaqının müqavilələrində nəzərdə tutulan və “Maddə 7(1)” kimi tanınan prosedur çərçivəsində səkkizinci dəfə dinlənilməsidir. Əslində, bu, ilk baxışda adi hüquqi prosedur kimi görünə bilər, lakin bu proses Aİ-nin daxili münasibətlərində ortaq dəyərlər, qarşılıqlı öhdəliklər və milli suverenlik arasındakı həssas balansın müzakirəsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Maddə 7(1) Aİ-nin təsis müqavilələrinin mühüm bir hissəsini təşkil edir və qurumun əsas dəyərlərinə – demokratiya, hüququn aliliyi, insan hüquqları və azlıqların müdafiəsi kimi prinsiplərə hörmətin təmin olunması məqsədi daşıyır və həmin maddə bir üzv dövlətin bu dəyərləri ciddi şəkildə pozduğuna dair "aydın risk" olduğu hallarda tətbiq edilir. Prosedurun əsas məqsədi cəza vermək deyil, əksinə, problemli sahələr üzrə dialoqa şərait yaratmaq, məsələləri qarşılıqlı anlaşma ilə həll etməkdir.

Macarıstana qarşı bu prosedur ilk dəfə 2018-ci ildə Avropa Parlamenti tərəfindən başladılıb. Parlamentdə qəbul edilən qərarda Macarıstanda bir sıra qanunvericilik və institusional dəyişikliklərin Aİ dəyərləri ilə uyğunluğu barədə narahatlıqlar ifadə olunmuşdu və bu narahatlıqlar arasında məhkəmə sisteminin müstəqilliyi, mediaya nəzarət, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti və akademik azadlıqlar kimi sahələr yer alırdı.

**(ardı 5-ci səhifədə)**

# İmpiçment oyunu: Koçaryan Paşinyanı devirməyə çalışır



**Rusiya Ermənistanın daxili siyasi həyatına aktiv maraq göstərməyə başlayıb. Ermənistanla iş üzrə yeni kurator, Rusiya Prezident Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenko vəziyyətlə tanış olur. Bu barədə Ermənistanın “Hraparak” qəzeti məlumat yayıb.**

**(ardı 4-cü səhifədə)**

# ABŞ ermənipərəstliyinə “soyuq duş”

Rubionun Smitə cavabı və Vaşinqtonun Cənubi Qafqaza baxış bucağı

**ABŞ Nümayəndələr Palatasının qəbul etdiyi və Gürcüstanın daxili işlərinə qarışmaq mahiyyəti daşıyan “Megobari aktı” ilə bağlı fikir bildirən Tbilisi meri Kaxa Kaladze bir müddət əvvəl demişdi ki, Birləşmiş Ştatların “dərin dövləti” müqavimət göstərir. Tbilisi meri Ağ evin hazırkı administrasiyasının həmin “dərin dövləti” məğlubiyyətə uğratmasının vacibliyinə də toxunmuşdu. Kaladzenin dilə gətirdiyi məqam aktuallığını qorumaqdadır. Amma...**

Hələlik onu bildirək ki, ABŞ-ın “dərin dövlət”indəki erməni sevdasına köklənmiş anti-Azərbaycan dairələr “fəallıq” göstərir, rəsmi Vaşinqtonun hazırkı kursuna zidd dəst-xətlərini davam etdirirlər. Sözügedən kəsim Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında keçirilimiş dinləmələrdə Dövlət Departamentinin rəhbəri Marko Rubionu hədəfə alıb.

**(ardı 3-cü səhifədə)**



# ABŞ–İran: Romadan ümidli mesajlar gəlir



Səhifə ⇨ 3

# Azərbaycan regionda və Mərkəzi Asiyada innovasiya lideridir




**İnnovasiya iqtisadiyyatı üzrə araşdırma platforması olan “StartupBlink” 2025-ci il üçün Qlobal Startap Ekosistemi İndeksini açıqlayıb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən verilən məlumata görə, son 4 ilin hesabatlarında ardıcıl olaraq yüksəliş nümayiş etdirən Azərbaycan bu il ən yüksək nəticəyə nail olub. Ölkəmiz qlobal reytinqdə 2024-cü illə müqayisədə 6 pillə irəliləyərək 74-cü yerdə qərarlaşıb. Ümumilikdə isə, ötən il ölkəmizdə ekosistemin illik artım tempi 24 faiz təşkil edib ki, bu da Mərkəzi Asiya region üzrə ən yüksək göstəricidir.**

**(ardı 6-ci səhifədə)**

# Ağdam Sənaye Parkı sürətlə böyüyür

*Bu müəssisə ölkədə 2-ci belə istehsalatdır*



**Prezident Administrasiyasının və işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvlərinin bu sənaye parkında sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanışlıq zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov Ağdam Sənaye Parkının rezidentlərin sayına görə Azərbaycanda ikinci sənaye parkı olduğunu bildirib.**

**(ardı 7-ci səhifədə)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 161** **Bakı şəhəri, 20 may 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər”də dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 177-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 11, maddə 676 (Cild I) ilə təsdiq edilmiş “Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci, 6-cı və 32-ci hissələr çıxarılsın.

**2.** 31-ci hissə aşağıdakı redaksiyada verilsin:

“31.Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılması və istismarına lisenziya verilməsi üçün tələb olunan əlavə şərtlər:

31.1. lisenziyalaşdırılması nəzərdə tutulan fəaliyyət növü üzrə mütəxəssislərin və işçi heyətinin müvafiq ixtisasa malik olmaları haqqında sənədin surəti;

31.2. fəaliyyət növü üzrə normativ hüquqi aktların və işlərin aparılması qaydalarını müəyyənləşdirən texniki sənədlərin siyahısı;

31.3. yanacaqdoldurma və qaz təchizatı obyektinin istismara qəbulu aktının surəti;

31.4. yanacaqdoldurma və qaz təchizatı obyektində istifadə olunan partlayış-yanğın mühafizəli avadanlıqların, mühərriklərin və cihazların “Texniki təhlükəsizlik sertifikatı”nın surəti;

31.5. yanacaqdoldurma obyektində (mikro və kiçik sahibkarlıq subyektlərinə məxsus obyektlər istisna olmaqla) elektrik mühərrikli nəqliyyat vasitələri üçün 50 kVt-dan az olmayan nominal gücə malik elektrik enerjisi doldurma məntəqələrinin mövcudluğu;

31.6. fəaliyyət növü ilə əlaqədar ölçmə vasitələrinin “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu, texniki reqlamentlərlə əhatə olunan mallara münasibətdə isə “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olması barədə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rəyi;

31.7. ərizəçinin görülən işlərin keyfiyyətinə və texniki təhlükəsizliyinə nəzarət sisteminə malik olması barədə sənədlərin surəti;

31.8. yanacaqdoldurma məntəqəsinin texniki təhlükəsizlik bəyannaməsi.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 162** **Bakı şəhəri, 21 may 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə və 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 mart tarixli 54 nömrəli və 4 mart tarixli 56 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə “2710 12 413 0”, “2710 12 510 1”, “2710 19 421 0”, “2710 19 422 0”, “2710 19 423 0”, “2710 19 424 0”, “2710 19 425 0”, “2710 19 426 0”, “2710 19 429 0”, “2710 19 460 0” və “2710 19 480 0” alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15” rəqəmləri “15 (2025-ci il 1 iyun tarixinədək – 0%)” sözləri ilə əvəz edilsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 mart tarixli 53 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə “2710 12 413 0”, “2710 12 510 1” və “2710 19 421 0 – 2710 19 480 0” alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 2710 12 413 0 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat) |
| 2710 12 510 1 | mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə | 1 ton üçün 200 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat) |
| 2710 19 421 0 – 2710 19 480 0 | digər qazoyllar, o cümlədən dizel yanacağı | 1 ton üçün 80 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat) |

Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti və “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 dekabr tarixli 516 nömrəli Qərarı ilə təsdiq edilmiş “Strateji ehtiyatların və bazar iştirakçıları tərəfindən təmin edilən malların nomenklaturaları”nda və 2025-ci il 12 mart tarixli 70 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fövqəladə ehtiyatların nomenklaturası”nda nəzərdə tutulmuş yanacaq növləri üzrə müəyyən olunmuş minimal həcmlərin formalaşdırılmasına və səmərəli istifadəsinə nəzarəti təmin etsinlər.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2025-ci il 1 yanvar – 1 iyun tarixlərində idxal etdiyi Aİ-92 benzini və dizel yanacağı üçün müvafiq olaraq 83 min ton və 18 min ton yuxarı hədd müəyyən edilsin.

Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 163** **Bakı şəhəri, 21 may 2025-ci il**

**“Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi və “Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 oktyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 10, maddə 662 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 164** **Bakı şəhəri, 22 may 2025-ci il**

**“Alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymətin müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 105-VIIQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 291 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymətin müəyyən edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 165** **Bakı şəhəri, 22 may 2025-ci il**

**“Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 noyabr tarixli 228 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1055 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nın 12-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 166** **Bakı şəhəri, 22 may 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 15 aprel tarixli 634 nömrəli və “Dövlət icbari şəxsi sığorta sisteminin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 15 aprel tarixli 634 nömrəli və “Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2021-ci il 18 may tarixli 1340 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1541 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 oktyabr tarixli 223 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I); 2024, № 2, maddə 242) ilə təsdiq edilmiş “Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”nın 2.2-ci bəndində “(“Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlara münasibətdə), Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti” sözləri “, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikası Baş Prokurorluğunun “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanları” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# FHN MDB ölkələrinin birgə təlimində



**Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin Noqinsk Xilasetmə Mərkəzinin poliqonunda MDB ölkələrinin təbii və texnogen xarakterli fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə qurumlarının birgə təlimi keçirilib.**

“Genişmiqyaslı dağıntı ilə müşayiət olunan zəlzələnin nəticələrinin aradan qaldırılması” mövzusunda keçirilən birgə təlimdə Azərbaycanı Fövqəladə Hallar Nazirliyinin Beynəlxalq Axtarış-xilasetmə Dəstəsi təmsil edib. Təlimə nazirliyin 30 şəxsi heyəti və 5 texnikası cəlb edilib.

Təlimdə qüvvə və vasitələrin operativ olaraq fövqəladə hadisə rayonuna cəlb edilməsi, bölmələrin yerləşməsi üçün çadır düşərgəsinin qurulması, koordinasiya mərkəzinin açılması və qarşılıqlı fəaliyyətin təşkili, təyin olunmuş iş sahələrində axtarış-xilasetmə əməliyyatları zamanı fəaliyyətin təhlükəsizliyinin təmin olunması məqsədilə ərazidə kəşfiyyat tədbirlərinin icrası və uçma təhlükəsi olan tikililərin möhkəmləndirilməsi, hündürlükdə və dağıntılar altında axtarış-xilasetmə tədbirlərinin həyata keçirilməsi üzrə tapşırıqlar Fövqəladə Hallar Nazirliyinin Beynəlxalq Axtarış-xilasetmə Dəstəsinin qüvvə və vasitələri cəlb olunmaqla uğurla icra edilib.

İştirakçılar Noqinsk xilasetmə mərkəzinin imkanları, fəaliyyət istiqamətləri və maddi-texniki bazası ilə də tanış olublar. Bununla yanaşı, müxtəlif mövzularında seminarlar təşkil edilib.

# AZAL təyyarəsinin qəza yerində xatirə abidəsi

**“Azərbaycan Hava Yolları” QSC-yə məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğradığı yerdə ucaldılan abidənin görüntüləri yayımlanıb.**



Bu, təyyarənin qalıqları olan ərazinin ətrafında skamyalar və güllərlə tamamlanmış metal hasarlanmadır.

Tüpkaraqan rayonunun akimi yerli mediaya izah edib ki, abidənin qurulması Manqistau vilayətinin sakinlərinin təşəbbüsü ilə baş tutub, heç bir büdcə vəsaiti istifadə olunmayıb.

Xatırladaq ki, AZAL-ın Bakıdan Qroznıya uçan sərnişin təyyarəsi ötən il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

***XQ***

# ABŞ ermənipərəstliyinə “soyuq duş”

(əvvəli 1-ci səhifədə)

ABŞ-da Ermənistanın maraqlarının müdafiəsi üzrə “ixtisaslaşmış” konqresmen Kristofer Smit təxribat xarakterli fikirləri kontekstində M.Rubionu sual atəşinə tutub. Smit ölkəmizi gözdən salmağa çalışıb və rəsmi Bakının ermənilərə qarşı, guya, soyqırımı törətdiyini iddia edib. Konqresmen, hətta, bir qədər “irəli gedərək” Rubionu “Azərbaycandakı siyasi məhbusları azad etmək” istiqamətində tədbir görməyə çağırıb.

Belə demək mümkünsə, stajlı erməniərəstə çevrilmiş K.Smit indiyədək Qarabağ münaqişəsinə dair bütün çıxışlarında Ermənistanın müdafiəsinə əsaslanmış mövqeyini möhkəmləndirmək üçün, bir qayda olaraq, ölkəmizdə insan hüquqlarının pozulmasına dair cəfəngiyyatlar səsləndirib. Smitin Azərbaycanı etnik təmizləmə və müharibə cinayətləri törətməkdə günahlandıran sərsəmləmələrinə də şahidliyimiz var. Yəni o, Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarından aldığı rüşvəti doğrultmaq üçün dəridən-qabıqdan çıxır, ağlagəlməz metodlara əl atır.

Ümumiyyətlə, belə təsəvvür var ki, K.Smit ABŞ Konqresində yalnız erməni maraqlarını qorumaq üçün kök salıb. Onun haypərəstlikdən başqa heç bir əməli fəaliyyəti yoxdur. Məsələn, koqresmen 2015-ci ilin sonunda “Azərbaycanda Demokratiya Aktı” adlı təxribatçı qanun layihəsi irəli sürmüşdü. Əlbəttə, sənədi heç bir konqres üzvü dəstəkləməmişdi. Hərçənd, vurğulanmalı bir vacib məqam var.

Məsələ ondadır ki, Birləşmiş Ştatların Prezident Donald Trampdan əvvəlki administrasiyası həm Smit, həm də digər erməniərəstlər üçün münbit zəmin yaratmışdı. Çünki həmin administrasiyanın özü də mahiyyətcə Smit kimilərindən geri qalmır, hər vəchlə Cənubi Qafqazda erməni avantürizmini diri saxlamağa cəhd göstərir, habelə özünü amiranə tərzdə aparıb ölkəmizin daxili işlərinə qarışmağa səy göstərirdi. Fikrimizin təsdiqi kimi, ABŞ Dövlət katibinin sabiq köməkçisi Ceyms O'Braynın sərsəmləmələrini yada sala bilərik. Bu şəxs bütün əndazələri aşaraq, Azərbaycanın İranla əməkdaşlıq xəttini, xüsusən Ermənistanın narazılığına görə Naxçıvana gedən yolun İran ərazisindən keçməsinə dair təşəbbüsümüzü tənqid etmişdi. C.O'Brayn Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərini də pisləmiş və Vaşinqton – Bakı münasibətlərinin “əvvəlki kimi davam edə bilməyəcəyini” deyərək, ölkəmizə hədə-qorxu gəlmişdi.

Bəli, ABŞ-ın hay sevdalı konqresmenlərin dili ilə danışan hakimiyyəti olub. Ancaq Birləşmiş Ştatların indiki rəhbərliyinin yanaşma tərzi fərqlidir və qənaətimizin doğruluğunu Rubionun Smitə cavabı sübuta yetirir. Dövlət katibinin sözlərinə görə, Vaşinqtonun məqsədi Bakı – İrəvan sülhünün qərarlaşmasıdır. “Azərbaycan və Ermənistan arasında münaqişə riski realdır və biz bunu önləməyə çalışırıq”, – deyən Rubionun yanaşmasından gələnən nəticə budur ki, Ağ ev ümumən regionda barış mühitinə sadiqdir və tərəflərdən heç birinin mövqeyini birtərəfli olaraq dəstəkləmir. Bu, son dərəcə vacib məqamdır.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp özünün bir müddət əvvəlki Şərq turnesi çərçivəsində Səudiyyə Ərəbistanına səfəri zamanı etdiyi çıxışında ölkəsinin ənənəvi klişelərdən uzaq duracağını bəyan etmişdi. Məsələn, Birləşmiş Ştatların əvvəlki administrasiyası insan hüquqları mövzusunu ölkələrin daxili işlərinə qarışmaq alətinə çevirmişdi. Hazırkı dövlət başçısı isə Səudiyyədəki nitqində məhz bunun yolverilməzliyinə dair mesaj səsləndirmişdi.

Haşiyə çıxaq ki, insan hüquqları sahəsində problemlər dünyanın hər yerində var. Ancaq indiyədək Vaşinqton başda olmaqla kollektiv Qərbin yanaşması onu deməyə əsas verirdi ki, məqsəd heç də çətinlikləri aradan qaldırmaq yox, onlar ətrafında manipulyasiya etməkdir. Mahiyyətcə, ABŞ-ın mövqeyi ayrı-ayrı ölkələrin daxilindəki problemlərin həlli reallığını doğurmur, əksinə ziddiyyətləri daha da dərinləşdirir, müzakirələr və kompromislər üçün meydanı daraldırdı. Yəni Trampın Birləşmiş Ştatların uzaq duracağını bildirdiyi xətt budur. Ancaq görünür, yanaşmanın Smit kimi erməniərəstlərə heç bir dəxli yoxdur. Ona görə də M.Rubio onları susdurmaqla məşğuldur: “Biz müəyyən idarəetmə



sistemləri ilə razı olmaya bilərik. Amma məsələ ondadır ki, bir çox hallarda ideala yaxın olmayan modellərə sahib ölkələrlə işləməyə məcburuq. Çünki bu, milli maraqlarımız üçün zəruridir. Biz diplomatiya və milli maraqlarımız arasında tarazlığı təmin etməliyik. İnsan hüquqları kimi digər maraqları da unutmadan. Azərbaycan bizə sülh kontekstində bu imkanları yaradır”.

Göründüyü kimi, obrazlı desək, it hürür, karvan keçir. Yəni Rubio rəsmi Vaşinqtonun prinsipial mövqeyini bir daha diqqətə çatdırır. Deməli, Ağ Evin indiki sahibləri Bayden-Blinken administrasiyasının 2025-ci ilin yanvarın 14-də – Trampın Prezident səlahiyyətlərinin icrasına başlamasından 6 gün əvvəl Ermənistanla imzaladığı strateji tərəfdaşlıq xartiyasını lakmus kağızına çevirirlər. Fikrimizin təsdiqi kimi, baş nazir Nikol Paşinyanın fevralda ABŞ-a mənasız səfərinin detalları üzərində dayanmaq mümkündür. Məlumdur ki, Nikol Birləşmiş Ştatlara sözügedən xartiyanın teleyinə aydınlıq gətirmək üçün yollanmış və xeyli pəjmürdə halda geri dönmüşdü. Nəticədə rəsmi İrəvan Bakı ilə sülh müqaviləsinin razılaşdırılmamış iki bəndini də qəbul etmək məcburiyyətində qalmışdı. Yəni Paşinyan güşəştə okeanın o tayından zəruri dəstək ala bilmədiyindən getmişdi.

Əlbəttə, demək olmaz ki, sülh bəndləri ilə razılaşan Ermənistan rəhbərliyi hazırda konstruktiv yoldadır. Əslə belə deyil. Paşinyan və komandasının Azərbaycanın barış sazişinin imzalanması üçün irəli sürdüyü iki şərti yerinə yetirmək istəməməsi fikrimizin sübutudur. Görünür, Smit də məhz buna görə ortaya düşüb və çalışır ki, ölkəmiz əleyhinə mənfi ictimai rəy yaransın. Onun sülh müqaviləsinin erməni avantürizminin mövcudluq parametri ilə imzalanması üçün Azərbaycana beynəlxalq təzyiqin, o cümlədən ABŞ-ın təzyiqinin formalaşmasına çalışdığı aşkardır. Axı Ermənistanın rəsmi Bakının iki şərtini yerinə yetirməsi ölkənin Azərbaycana qarşı ərazi iddiasından əməli şəkildə geri çəkilməsi deməkdir.

Yeri gəlmişkən, Rubio bu ilin martında bildirmişdi ki, Birləşmiş Ştatlar administrasiyası Azərbaycan və Ermənistan arasında danışıqların yekunlaşmasını dəstəkləyir və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa çağırır. “Artıq sülh naminə öhdəlik götürmək, müqaviləni imzalamaq, ratifikasiya etmək və Cənubi Qafqaz xalqları üçün rifahın yeni dövrünü başlatmaq vaxtıdır”, - deyən dövlət katibinin mövqeyinə bənzər mövqeyi ABŞ Dövlət Departamentinin Enerji Resursları Bürosunun baş müşaviri Erik Ceykobs Bakıya səfəri zamanı da səsləndirmişdi: “ABŞ Prezidenti Donald Tramp Azərbaycan və Ermənistan arasında çoxdan gözlənilən sülh müqaviləsinin imzalanmasını səbirsizliklə gözləyir”.

Əlbəttə, belə mütərəqqi ruhlu fikirləri ABŞ-ın əvvəlki administrasiyasının təmsilçiləri də dilə gətirmişdilər. Amma, onların obyektiv və ədalətli sülh prosesinə pozitiv yanaşdıqlarını yalnız ilk baxışdan söyləmək olurdu. Çünki “sabiqlərin” sonrakı davranışları aşkar erməniərəstlik niyyətinə köklənirdi və bunun müxtəlif təzahürləri diqqətdən yayınmırdı. Üstəlik, “ekslər” gethagetdə də öz işlərini gördülər. Haqqında söz açdığımız xartiyanı ərsəyə gətirərək, erməniərəstliyə son “xidmətlərini” göstərdilər. Belə nəticə hasil oldu ki, Bayden – Blinken komandası üçün hay sevdası son dərəcə vacib imiş. Görünür, komandanın üzvləri, öz aləmlərində, Ermənistanın gələcəyini təminat altına alıb siyasi səhnəni tərk etdiklərini düşünürmüşlər. Əlbəttə, kənardan çox miskin mənzərənin olduğunu söyləmək mümkündür. O boyda ölkənin və super gücün bir ovuc hayın əsirinə çevrilməsi nəinki miskinlik, eyni zamanda, rəzillikdir.

Sonda bildirək ki, bu gün Smit kimi konqresmenlərin ortaya düşüb erməni təəssübü çəkmələri, Baydenin dövründəki anti-Azərbaycan xətti “diriltmək” cəhdləri də miskinlik və rəzillikdən başqa bir şey deyil. Tam qətiyyətlə demək olar ki, Birləşmiş Ştatların hazırkı rəhbərliyi Konqresin stajlı erməniərəstlərinin, keçmişin iyrənc qalıqlarının dövlətin hazırkı kursuna müdaxilə cəhdləri qarşısında prinsipial duruş gətirməyi bacaracaq. Əslində, Rubionun Smitə cavabı da bunu söyləməyə əsas verir. Məsələyə mövcud kontekstdən yanaşsaq, Dövlət katibinin Azərbaycan və Ermənistan arasında münaqişə riskinin mövcudluğuna dair bəyanatının həmin riskin daha çox erməni seqmentinin aktuallığını vurğulamaq məhiyyəti daşıdığını söyləyə bilərik. Çünki Rubio Azərbaycanın sülh şərtlərinin əleyhinə heç nə deməyib. Halbuki, Smitin çalışdığı bu idi. Deməli, K.Kaladzenin təbirincə desək, ABŞ-ın “dərin dövləti” Tramp və komandası tərəfindən neytrallaşdırılır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

**ABŞ və İran rəsmiləri arasında Romada davam edən danışıqlarda müəyyən yumşalmalar müşahidə olunur. Bu da təbiidir. Həm bölgədə, həm də dünyada cərəyan edən hadisələrin xarakteri “böyük güclər”i xarici siyasət prioritetlərinə – dünənki müttəfiqləri kimi, opponentləri ilə münasibətlərə yenidən baxmağa sövq edir.**

# ABŞ–İran: Romadan ümidli mesajlar gəlir

## *Vaşinqton–Tehran danışıqlarında irəliləyişin Azərbaycan üçün önəmi*

“Daimi dost yoxdur, daimi maraqlar var” prinsipindən çıxış edən ABŞ-da hakimiyyət dəyişikliyinin Vaşinqtonun Yaxın Şərqə yönəlik siyasətində müəyyən korrektələr edəcəyinə səbəb olacağını proqnozlaşdıran ekspertlər yanılmadılar. Artıq respublikaçı Donald Tramp Administrasiyası ilə islahatçı Məsud Pezeşkianın komandası arasında birbaşa təmaslar baş tutub. Cari il aprelin əvvəllərində Oman və Qətərin vasitəçiliyi ilə “gizli təmaslar”la start götürən ikitərəfli danışıqlar artıq açıq müstəvidə, həm də Avropada davam etdirilir. Roma bu siyasi dəyişikliyə evsahibliyi edən şəhərdir. Ekspertlər danışıqlarda Vaşinqton üçün əsas məqsədin İranın nüvə silahı əldə etməsinin qarşısını almaq, Tehran üçün isə sanksiyaların yumşaldılması olduğunu bildirirlər.



Qərb mediası Omanın Romadakı diplomatik nümayəndəliyində İran və ABŞ nümayəndələri arasında aparılan danışıqların beşinci raundunun müəyyən irəliləyişlə başa çatdığı barədə xəbər verir. Bunu İran nümayəndə heyətinin başçısı, Xarici işlər naziri Abbas Əraqçi də təsdiqləyib. ABŞ nümayəndə heyətinə Prezidentin xüsusi nümayəndəsi Stiven Vitkoff başçılıq edir. Heyətə, həmçinin Dövlət Departamentinin siyasət planlaması üzrə şöbəsinin direktoru Maykl Anton, İran tərəfdən isə xarici işlər nazirinin müavinləri Məcid Təxt-Rəvançi və Kazem Qəribabadi, eləcə də XİN-in mətbuat katibi İsmail Bəqayi daxildir.

A.Əraqçinin sözlərinə görə, yaxın günlərdə müzakirə olunan məsələlərə aydınlıq gətirmək mümkün olacaq: “Uzunmüddətli razılığa nail olmaq kimi ümumi məqsədə doğru irəliləyə biləcəyimizə ümid edirəm. Deyə bilərəm ki, bu, indiyə qədər apardığımız danışıqların ən peşəkar raundlarından biri idi. Biz bir daha İranın danışıqlarla bağlı mövqeyini və prinsiplərini açıqladıq. Bizim yanaşmalarımız çox aydındır və biz onlara sadiqik. Hesab edirəm ki, indi ABŞ nümayəndələri bizim mövqelərimizi daha yaxşı və aydın başa düşürlər. Omanın hörmətli Xarici işlər naziri cənab Boussaidi bu raundda mövcud maneələri aradan qaldırmaq və irəliləmək üçün həll yollarını təqdim etməyə çalışdı”.

* * *

Yayılan məlumatlarda qeyd olunur ki, danışıqlarda tərəflər müxtəlif fikir və arqumentlər səsləndiriblər. Amerikalı rəsmilərin müəyyən ideyalar irəli sürdüklərini bildirən Əraqçi hər iki tərəfin bu ideyaların daha ətraflı şəkildə araşdırılmasına ehtiyac duyduğunu vurğulayıb: “Həmin təklif və ideyalar hazırda hər iki tərəf üçün heç bir öhdəlik yaratmadan paytaxtlara təhvil verilərək. Bizim əsas məqsədimiz İranın prinsiplərini və mövqelərini qoruyub saxlamaqla, potensial olaraq, irəliləyişə töhfə verə biləcək yeni ideya və təklifləri hərtərəfli araşdırmaqdır. Bu təkliflər və problemlərin həlli yolları ilə bağlı tərəflərin öz fikirlərini bildirməsi, daha sonra danışıqların növbəti mərhələsinin təşkil edilərək keçirilməsi planlaşdırılır. İnşallah, növbəti mərhələdə ölkələrin ali rəhbərlikləri səviyyəsində bu qərarlara lazımi diqqət yetirilsə, müəyyən irəliləyiş əldə edə bilərik”.

Göründüyü kimi, Roma danışıqlarının pozitiv məcraya yönəldiyinə dəlalət edən mesajlar verilir. Amma müzakirə olunan mövzuların ağırlığı və kompromisin əldə edilməsinin çətinliyi də diqqətdən yayınmamalıdır. İllərlə yığılıb qalmış problemlərin bir neçə ayın içində həll olunacağını gözləmək sadəlövhlük olar. Amma tərəflərin doğru yolda olmasının özü artıq irəliləyiş sayılmalıdır.

İran XİN-in rəhbərinin jurnalistlərə verdiyi açıqlamasında pozitiv notlar aşkar hiss olunur: “Ümid edirəm ki, növbəti bir-iki raundda İranın mövqeyinin daha yaxşı başa düşülməsini nəzərə alaraq, biz danışıqlarda irəliləməyə imkan verəcək qərarlara gələ biləcəyik. Doğrudur, biz hələlik o mərhələyə çatmamışıq, amma bu da ümidsiz deyil. Fikrimcə, bu gün xüsusilə baş vermiş müzakirələri və Omanın maneələri aradan qaldırmaq üçün təklif etdiyi həll yollarını nəzərə alsaq, danışıqlarda irəliləyiş ehtimalı böyükdür”.

* * *

Vaşinqtonla Tehran arasında Romada baş tutan danışıqlara Moskva da reaksiya verib. ABŞ və İran arasında, o cümlədən Fars körfəzi dövlətlərinin vasitəçiliyi ilə təmaslardan xəbərdar olduqlarını deyən Rusiya Xarici işlər nazirinin müavini Sergey Ryabkovun sözlərinə görə, nüvə sazişi üzrə razılıq əldə edilərsə Moskva bunu müsbət hal hesab edəcək. Ryabkov qeyd edib ki, İran Vyanada nüvə sazişi üzrə danışıqların bərpasına hazırdır və Rusiya ilə Çin də “bu qərarın lehindədir”.

ABŞ və İran hələ iki il bundan əvvəl, avqustun ortalarında vasitəçilərlə dialoqa başlayıb. Bunun ilkin müsbət nəticəsi məhbusların mübadiləsi və Cənubi Koreya banklarında dondurulmuş İran aktivlərinin azad edilməsi barədə qərar olub.

Sonda onu da qeyd edək ki, bugünədək Vaşinqton və Tehran İranın nüvə proqramı ətrafında fikir ayrılığının nizamlanmasına dair Omanın vasitəçiliyi ilə 4 danışıq keçirib. Bunlardan birincisi cari il aprelin 12-də Omanın paytaxtı Maskatda, ikincisi aprelin 19-da Romada, üçüncü və dördüncü isə aprelin 26-da və mayın 11-də yenidən Maskatda baş tutub.

***İ.HƏSƏNQALA***
***XQ***

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**siyasi icmalçı**

– ABŞ–İran danışıqları, əsasən, üç mövzu ətrafında aparılır. Birinici mövzu Vaşinqtonu narahat edən İranın nüvə proqramıdır. İkincisi uranın zənginləşdirilməsi və nüvə silahının daşıyıcısı olan ballistik raket sistemləridir. Sonuncu məsələ rəsmi Tehranın yürütdüyü regional siyasət, başqa ölkələrin daxili işlərinə qarışması və radikal qüvvələrin dəstəklənməsidir. Bu üç istiqamətin hər bir üzrə İranın mövqeyi fərqlidir. Birinci mövzu ilə bağlı Donald Tramp Administrasiyası bildirir ki, nüvə proqramı, ümumiyyətlə, sıfırlansın. İran buna cavab olaraq “sülh nüvə proqramı”nı irəli sürür. Bu tezis bir neçə il əvvəl imzalanmış ilkin anlaşma protokolunda da öz əksini tapıb. Orada uranın zənginləşdirilməsi prosesinin beynəlxalq nəzarətə verilməsi təklif olunur. Raket sistemləri ilə bağlı rəsmi Tehran hər hansı məhdudiyyəti qəbul etməyəcəyini bildirib. Üçüncü isə əvvəlkilərdən bir qədər rahat mövzudur. Ona görə ki, regionda geosiyasi reallıq dəyişib. Fakt ondan ibarətdir ki, ABŞ və İsrail hərbi gücdən istifadə edərək, İranpərəst qüvvələrin infrastrukturunu bir çox yerlərdə dağıdıb. Buraya Qəzzadan savayı, Suriya və Livan da daxildir. Vaşinqton artıq husilərlə, həttа HƏMAS-la birbaşa danışıqlar aparır. İran meyilli qüvvələrin fəaliyyətini lokallaşdırmaqdan ötrü İraqda da müəyyən hərəkətlər həyata keçirilir.

Yəni bu coğrafiyada İranın nüfuz dairəsi daralmaqdadır. Bu səbəbdən danışıqlar prosesində ən asan mövzu sayıla bilər. Müzakirələrin ağırlıq yükü ilk iki mövzu üzərinə düşür. Hesab edirik ki, Tramp Administrasiyası həmin mövzularda müəyyən kompromisə getməyə meyillidir. Beynəlxalq nəzarətin gücləndirilməsi, onun institutlaşdırılması və sair. Əslində, hazırda Prezident Pezeşkianın rəhbərliyi altında olan praqmatik qrup Vaşinqtonun müəyyən güzəştlərə gedəcəyinə ümidlidir.

Roma danışıqlarının Azərbaycana təsiri məsələsinə gəldikdə, deməliyik ki, İranın mövqelərinin regional formatda zəifləməsi hakimiyyətdəki radikal qrupların nüfuzuna ciddi xələl yetirib. Təbii olaraq, praqmatik qrupun mövqeyi güclənib. Bu qrup ümumi pozitiv proyeksiyadan Azərbaycana münasibətdə də istifadə edir. Bunu ikitərəfli münasibətlərin intensivləşməsində aydın görürük. Bakı həmin praqmatik qrupla münasibətləri genişləndirməyə və dərinləşdirməyə çalışır. Aydın görünən odur ki, İran–ABŞ danışıqları uğurlu nəticəyə çatsa, bu, Bakı–Tehran münasibətlərinə də müsbət təsir göstərəcək.

# Azərbaycana dəstək, yoxsa Qərbə anti-Rusiya mesajı?

## Nikol Paşinyanın hiyləgər siyasi gedişinə sözardı

**Məlum olduğu kimi, Bakı və İrəvan Avropa Siyasi Birliyinin qarşıdakı sammitlərinin keçirilməsi üçün bir-birinin namizədliklərini dəstəkləyiblər. Bu barədə məlumatı Ermənistanın baş naziri Nikol Paşinyan verib. Paşinyan, eyni zamanda, ASB-nin ali toplantısının Azərbaycanda keçirilməsi qərarını alqışladığını da bildirib. Bütün bunlar öz yerində. Fikrimizi əsaslandırmaq üçün əvvəlcə, başqa məqama diqqət yetirərək bildirək ki, Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Ermənistana gözlənilməz səfərinin məqsədləri ilə bağlı müxtəlif versiyalar var. Ötən saylarımızda da mövzu barədə söz açmışdıq. Paşinyanın açıqlaması isə həmin versiyalara daha birini əlavə etmək üçün əsas yaradır və qeydlərimiz bu haqdadır.**

O da məlumdur ki, ABŞ-da Prezident Donald Trampın hakimiyyətə gəlişindən sonra ölkədəki ermənipərəstlik xətti iflasa uğrayıb. Paşinyan bu ilin fevralında Birləşmiş Ştatlara səfər etsə də, həmin xəttin pozitiv tərəfinə aid heç nə əldə edə bilməyib və suyu süzülmüş şəkildə geri qayıdıb. Bundan sonra rəsmi İrəvan Bakı ilə sülh müqaviləsinin bütün bəndlərini razılaşdırmaq məcburiyyətində qalıb.

Amma erməni iqtidarı Azərbaycanın barış sazişinin imzalanması üçün irəli sürdüyü iki şərtlə razılaşmır. Söhbət Ermənistan konstitusiyasına dəyişiklikdən – sənədin İstiqlaliyyət bəyannaməsinin işğalçı mahiyyətindən xilas edilməsindən və ATƏT-in Minsk qrupunun rəsmən ləğvi üçün müştərək tədbirlərin görülməsi şərtlərinin yerinə yetirilməməsindən gedir. Nəzərə alaq ki, Minsk qrupu Qarabağ münaqişəsi məntiqini rəhbər tutur və Bakı məhz buna görə onun fəaliyyətinə son qoyulmasında israrlıdır.

Tam aydındır ki, Ermənistan rəhbərliyi Azərbaycanın irəli sürdüyü şərtlərin qəbulundan yayınmaqla, ərazi iddiası və Qarabağ avantürası üçün daxili hüquqi və mənəvi zəmini aktiv saxlamaq niyyəti güdür. Azərbaycan isə mövqeyində qətidir və hazırda bütün bunlar Bakı-İrəvan sülhünün başlıca kazusunu təşkil etməkdədir. Lakin...

İndi erməni iqtidarı müxtəlif beynəlxalq platformalarda Azərbaycanla barışa razılıqla bağlı təbliğat aparır, özünü "sülh göyərçini" kimi qələmə verməyə çalışır. Əlbəttə Paşinyan və komandasının üzvləri beynəlxalq ictimaiyyətin ölkəmizə barış sazişini imzalamaq yönümlü təzyiq göstərməsinə nail ola bilmirlər. Şübhəsiz, durumu Rusiyada da yaxşı görürlər. Bir sıra ekspertlər isə Lavrovun İrəvana Moskvanın köməyini təklif etmək üçün yollandığını bildirirlər. Təxminən belə: sənə heç kəs, hətta ABŞ belə dəstək olmur, imkan ver, məsələyə biz girişək.

Əslində, Lavrovun İrəvanda bildirdikləri Rusiyanın konfliktləri həll etmək yöntəminin ayrı-ayrı təzahürləri idi. Onun hay varlığı üçün şanlı sayılan keçmişi xatırlamasının, hətta, rus silahının Azərbaycana Ermənistan üzərində üstünlük qazandırdığına dair ittihamedici suala cavabında dilə gətirdikləri də həmin təzahürdən qaynaqlanırdı. Lavrov bildirmişdi ki, Ermənistan vaxtilə Qarabağı və digər yeddi rayonu məhz Rusiyanın silahı ilə ələ keçirmişdi. Yəni XİN rəhbərinin həm Qarabağı, həm də digər yeddi rayonu Azərbaycan torpağı kimi təqdim etməsinin və Ermənistanın heç zaman Qarabağdakı keçmiş separatçı rejimi tanımadığını bildirməsinin hansısa əhəmiyyəti yoxdur. Guya, rəsmi İrəvan qondarma respublikanı tanısaydı, nə dəyişəcəkdi ki? Rusiya bölgəni erməniləşdirmək üçün nəsə başqa formul tapacaqdı? Digər tərəfdən, guya, Rusiya 44 günlük müharibədə Ermənistana silah dəstəyi göstərməmişdi? Göstərmişdi və bunu ölkənin Prezidenti Vladimir Putin də vurğulayıb. O, hətta savaş zamanı Bakı və İrəvan arasında silah-sursat və digər hərbi komponentlər baxımından paritetin olduğunu da diqqətə çatdırıb...



Sözümüz ondadır ki, Lavrovun mesajları subliminal xarakterlidir. Əlbəttə, Rusiyanın baş diplomatının dediklərinin Ermənistan daxilinə təsir trayektoriyasından söz açmaq mümkündür. Eləcə də Paşinyan administrasiyasına təsirdən. Yəni belə düşünmək mümkündür ki, Lavrov İrəvana Ermənistana köməyin, faktiki olaraq, hərbə-zorbalıq motivini vəd etmək üçün yollanmışdı. Bəs erməni iqtidarının cavabı necədir?

Görünür, Paşinyan Lavrovu, daha dəqiq desək, Rusiyanın köməyini geri çevirib. Bunu Kremlin baş diplomatının İrəvanda sualları cavablandırarkən nümayiş etdirdiyi aqressiv ton da təsdiqləməkdədir. Ancaq hesab edirik ki, bu mənada Nikolun Azərbaycanın ASB müstəvisində dəstəklənməsinə dair mesajı daha böyük anlam daşıyır. Çünki ona də bu mesaj təkcə ölkəmizə deyil. Başqa sözlə desək, Paşinyanın bildirdikləri yalnız Bakıya İrəvanın Moskva ilə razılaşmadığına dair ismarıcı sayılmamalıdır. Nikol, faktiki olaraq, Qərbə də Lavrovu əliboş göndərdiyini bildirir.

Sonda qeyd etdiyimiz məqamlara nəzərən belə nəticəyə gələ bilərik ki, Paşinyanın Azərbaycanı ASB sammiti ilə bağlı dəstəkləmək, hətta alqışlamaq mövqeyini Bakı – İrəvan sülhü baxımından müsbət dinamika olaraq qiymətləndirmək mümkünsüzdür. Çünki erməni baş nazir daha çox xaricdəki havadarlarına Qərb kursundan yayınmadığını, Rusiyaya tərəf "yıxılmadığını" göstərməklə, onların Cənubi Qafqazdakı erməni maraqlarını qorumaq üçün hərəkətə keçməli olduqlarına dair mesaj verir. Hətta, müəyyən mənada, minnət də qoyur. O hesaba qalsa, Ermənistan COP29-un da keçirilməsi ilə bağlı Azərbaycanın namizədliyini dəstəkləmişdi. Sonra ölkə COP-a fokuslanmış anti-Azərbaycan kampaniyasına dəstək verdi.

*R.ƏVƏZ*
*XQ*

---

# İmpiçment oyunu: Koçaryan Paşinyanı devirməyə çalışır

(əvvəli 1-ci səhifədə)



Nəşr mövzunu inkişaf etdirərək yazır ki, ölkənin ikinci prezidenti, Qarabağ klanının "xaç atası" Robert Koçaryan bir neçə gün əvvəl Moskvada qısamüddətli səfərdə olub. Hərçənd, o, bir-iki ay əvvəl də Rusiya paytaxtına getmişdi: "O, mayın 22-də gecə qayıdıb və Kremldən aldığı təlimatla bağlı hələ komandasına məlumat verməyib. Yeri gəlmişkən, qeyd edək ki, əvvəlki səfərindən sonra Koçaryan geniş müsahibə verərək fəallaşdığını bildirmişdi. Bəzi məlumatlara görə, Moskvada budəfəki müzakirə mövzusu baş nazir Nikol Paşinyanın impiçmenti ilə bağlı olub. İstisna edilmir ki, Koçaryanla baş nazir vəzifəsinə potensial namizədlərin kimliyi müzakirə olunub. Yaxın günlərdə bununla bağlı bəzi açıqlamaların veriləcəyi və müvafiq addımların atılacağı istisna edilmir".

Bildirilib ki, Rusiyada görüş və müzakirə şəxsən S.Kiriyenko ilə deyil, Kremlin erməni məsələləri üzrə ixtisaslaşmış digər bir rəsmi şəxsi ilə keçirilib. Ancaq nəşr həmin "ermənişünas"ın kimliyini açıqlamayıb.

Qeyd edək ki, R.Koçaryanın fəallaşmasının startı hesab olunan sözügedən müsahibə mayın 17-də, şənbə günü verilmişdi. Ermənistanın ikinci prezidentinin ofisində baş tutan müsahibədə ölkənin "Ermənistan xəbərləri–Nyus.am", "Yerevan.Today", "Beşinci kanal" və "Politik.am" kimi kütləvi informasiya vasitələri iştirak etmişdilər. Mayın 19-da isə bazar ertəsi günü isə müsahibənin tam versiyası yayımlanmışdı.

R.Koçaryanın müsahibə zamanı Rusiyanın ünvanına xeyli xoş sözlər deməsi diqqətdən yayınmamışdır. Məsələn, o bildirmişdi ki, Ermənistan Rusiya ilə münasibətləri mütləq bərpa etməlidir. Demişdi ki, dünya birqütblülükdən çoxqütblülüyə doğru gedir, keçid dövrü isə qeyri-sabitliklə xarakterizə olunur və bu baxımdan Ermənistan da daxil olmaqla, bəzi ölkələr üçün təhlükələr artır: "Rusiya, Türkiyə və İran üçlüyü arasında potensial baxımından ən güclüsü Rusiyadır. Son bir neçə yüz ildə belədir və coğrafiya dəyişmədiyi üçün geosiyasi vəziyyət də çox az dəyişir. Biz öz yerimizdəyik, Türkiyə öz yerindədir. Türkiyənin ambisiyaları (?) artır. Bu ambisiyaların artması bizim üçün müəyyən təhlükə yaradır. Rusiya ilə tərəfdaşlıq və strateji müttəfiqlik münasibətləri bərpa edilməlidir. İran faktorunu da cəlb etməliyik. İran da bizimə dost ölkədir. Ona görə yox ki, qonşudur, ortaq maraqlarımız var. Biz İran komponentini cəlb etməklə Ermənistan–Rusiya münasibətlərində üçbucaq yaratmalıyıq".

Jurnalistin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistana kömək etmədiyi ilə bağlı sualına cavab olaraq Koçaryan dəfələrlə bu məsələ ilə bağlı çıxış etdiyini xatırladıb və qurumunun bütün üzvlərinin Azərbaycanla Ermənistandan daha yaxşı münasibətlərə malik olduğunu bildirib: "Bu məsələ KTMT tərəfindən həll edilməməli idi. KTMT haqqında danışanda qurumu dərhal Lukaşenkonun obrazı ilə əlaqələndirir və "KTMT kömək etmədi" deyirsiniz. KTMT-nin onurğa sütunu olan ölkə (Rusiya nəzərdə tutulur–S.H.) ilə münasibətlərinizi korlayırsız, sonra da "kömək etmədi" deyirsiniz. Niyə kömək etməli idi? Paşinyan özü demişdi ki, hansısa dəf uğrunda döyüşməyəcəklər. Sərhəddə insident oldu, "KTMT kömək etmədi" deyirsiniz. Yardım almaq üçün bəzi prosedurlardan keçməli və bir neçə ay gözləməlisiniz. Əgər sən torpağın üçün döyüşməsən, heç kim sənin üçün vuruşmaz. Səbəbləri ilk növbədə bunda axtarmaq lazımdır".

R.Koçaryan Ermənistanın üzləşdiyi çətinliklərdə Rusiyanın heç bir rolunun olmadığını deməklə yanaşı, Moskvaya xoş görünmək üçün Avropanın ünvanına tənqidi fikirlər də səsləndirmişdi. Demişdi ki, "qoca qitə"nin Ermənistanın hansısa təhlükəsizlik məsələsini həll edə biləcəyini düşünmək sadəlövhlükdür. "Belə bir hal yoxdur", – deyən Koçaryan əlavə etmişdi ki, Fransa prezidenti Emmanuel Makron hansısa gəlişigözəl bəyanat verəcək, ermənilər sevinəcək, bəlkə o, hətta Ermənistan baş nazirini qucaqlayacaq və bununla da hər şey bitəcək: "Hazırda bu regionda aktor ola biləcək üç dövlət var: Rusiya, Türkiyə və İran. Hansı ölkə bizə daha yaxındır, hansı ölkə ilə iqtisadi əlaqələrimiz daha güclüdür, tarixi və miqyası var, hansı dövlət daha qüdrətlidir və ən böyük iqtisadi və hərbi potensiala malikdir? Bunlar alternativ cavabı olmayan suallardır".

O qeyd etmişdi ki, bir-birini tamamlayan siyasət aparılmalıdır: "Bu, bizim çoxsaylı alternativlərimizin olması halı deyil. Avropa ilə bağlı müzakirələr mənasızdır, Avropa onlara heç reaksiya vermir. Onların bir məqsədi var – Rusiyaya zərər vurmaq. Bu, strategiya deyil, kiminsə əlində alətə çevrilmək üsuludur".

***

Beləliklə, R.Koçaryanın bu müsahibəsi onun son illərdə Qərbə, xüsusən də Avropa İttifaqı və ABŞ-a qarşı ritorikasını daha da sərtləşdirməsinin göstəricisi olmuşdu. O, Avropanı Ermənistanın daxili işlərinə müdaxilə etməkdə, Qərb dəyərlərini isə ölkənin milli kimliyinə təhdid yaratmaqda günahlandırır. Bu çıxışlar ilk baxışda müstəqil mövqe təsiri bağışlaya bilər, amma, əslində, Koçaryan bu ritorika vasitəsilə Rusiyaya xoş gəlməyə, Kreml qarşısında özünü, necə deyərlər, etibarlı oyunçu kimi təqdim etməyə çalışır. Onun Qərbə yönələn tənqidləri daha çox Kreml üçün səslənən siyasi mesajlara bənzəyir və daxili auditoriyadan çox, Moskvanın siyasi isteblişmentinə ünvanlanıb.

Sabiq prezidentin bu mövqeyi Ermənistanın balanslı xarici siyasətinə ziddir. Paşinyan hökumətinin Qərblə əlaqələri genişləndirməsi, demokratiya, hüquq-mühafizə və iqtisadi islahat sahələrində əməkdaşlıq qurması Koçaryan üçün təhlükə kimi görünür. Çünki bu proseslər sabiq prezidentin rüşvətə, korrupsiyaya və güc balansının şəxsi maraqlara uyğun qurulmasına əsaslanan idarəetmə modelini sıradan çıxarır. Bu səbəbdən də, o, Qərbi tənqid edərək Rusiya ilə ideoloji yaxınlıq nümayiş etdirməyə çalışır. Halbuki bu yanaşma Ermənistanın suveren seçimini məhdudlaşdırır və ölkəni yenidən bir qütbün təsirinə salmağa xidmət edir. Qərbi tənqid etmək, Rusiyaya sədaqət nümayiş etdirməklə hakimiyyətə gəlmək arzusu Koçaryanın keçmişdən dərs almadığını və hələ də xalqı deyil, sponsorlarını düşünən siyasətçi olaraq qaldığını sübut edir.

Bütün bunlar fonunda R.Koçaryanın növbəti dəfə Rusiyaya səfər etməsi ciddi maraq doğurur. Moskvada əsas müzakirə mövzusunun baş nazir Paşinyana qarşı impiçment məsələsi olmasına dair yayılan iddiaların nə qədər real olub-olmadığı hələ tam aydın deyil. Amma məlumdur ki, Koçaryan son illərdə bir neçə dəfə siyasi səhnəyə qayıtmaq üçün cəhdlər göstərib və hər dəfə cəmiyyət tərəfindən ciddi dəstək ala bilməyib. Onun rəhbərlik etdiyi "Hayastan" bloku parlamentdə simvolik təmsilçilikdən kənara çıxmır, ictimai reytinqi isə minimum səviyyədədir. Belə olan halda, Koçaryanın Moskvaya arxalanaraq ölkədə siyasi dəyişikliklər etmək istəyi həm siyasi etikaya, həm də Ermənistanın suverenliyinə ziddir.

Daha da düşündürücüsü odur ki, Koçaryan erməni xalqının seçimi ilə formalaşan hakimiyyəti devirmək məqsədilə xarici paytaxta, özü də tarixi hegemon mərkəzə sayılan Moskvaya müraciət edir. Bu, istər siyasi, istərsə də mənəvi baxımdan qəbulolunmaz bir davranışdır. O, öz şəxsi ambisiyalarını xalqın seçiminin, demokratik proseslərin və regional sabitliyin önünə qoyur. Əlbəttə, Paşinyanın siyasi kursu və qərarları mübahisəli ola bilər, lakin siyasi dəyişikliklər hər bir ölkədə yalnız daxildə – xalq iradəsi və qanuni yolla baş verməlidir. Koçaryanın Moskva ilə belə bir plan üzərində anlaşması ərəfəsində Ermənistanı yenidən nisbi müstəqillik dövrünə qaytara bilər.

Əslində, bu fonda əsas məsuliyyət birbaşa Koçaryanın üzərinə düşür. O, Ermənistana illərlə rəhbərlik etmiş bir şəxs kimi ictimaiyyət qarşısında hesab verməli olan biridir. Hər hansı sabiq prezidentin xarici paytaxtlarda siyasi planlar quraraq ölkəsinin konstitusion hakimiyyətinə qarşı layihələr hazırlaması normal qəbul edilə bilməz. Onun Rusiya ilə bu cür təmaslarının nə Ermənistan xalqı tərəfindən mandatı var, nə də real siyasi dayağı. Kremlin erməni məsələləri üzrə emissarları ilə Koçaryanın dialoqu, əslində, Ermənistanda siyasi sistemin, necə deyərlər, arxa qapıdan devrilməsi cəhdidir. Bu isə nəinki Ermənistanın daxilində, eyni zamanda, regionda da sabitlik üçün təhlükə yarada bilər.

Onu da bildirək ki, "Hraparak" qəzeti mənbələrə istinadən N.Paşinyanın impiçmenti üçün Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş rəhbəri, "Vətən" partiyasının lideri Artur Vanetsyanın baş nazir vəzifəsinə namizədliyinin irəli sürülə biləcəyini yazıb. Belə bir siyasi fiqurun baş nazirliyə potensial namizəd kimi gündəmə gətirilməsi Koçaryanın planlarının təkcə şəxsi maraqlarla yox, həm də taktiki kombinasiya ilə müşayiət olunduğunu göstərir. Müxalif fraksiyaların öz namizədlərindən imtina etməsi ehtimalı, Moskva tərəfindən razılaşdırılmış fiqurun irəli sürülməsi ssenarisini aktuallaşdırır. Bu da Ermənistan siyasətində müstəqil siyasi qərarların yerini əlaqələndirilmiş kənar müdaxilələrin alması deməkdir.

### Ekspert rəyi



**İlyas HÜSEYNOV, politoloq**

– Robert Koçaryan bu oyunla yalnız Paşinyanı deyil, bütövlükdə hayların seçimini hədəfə alır. Ermənistanın Rusiyaya münasibətdə hansı siyasəti yürütməsi barədə müxtəlif baxışlar ola bilər, amma bu münasibət daxili siyasi iradə üzərindən formalaşmalıdır, şəxsi maraqlar və klan təfəkkürü üzərindən deyil. Moskvanın hansı emissarını dövriyyəyə buraxmasından asılı olmayaraq, əgər bu prosesdə şəffaflıq və legitimlik yoxdursa, nəticə həm Ermənistan, həm də region üçün fəsadlı olacaq.

Əlbəttə, Rusiya Ermənistandakı proseslərə maraqlı ola bilər. Bu, geosiyasi reallıqdır. Ancaq burada əsas məsələ Ermənistanın öz daxilində hansı fiqurların hansı məqsədlərlə bu maraqlara vasitəçilik etməsidir. Koçaryan kimi simalar təkcə xarici güclərin maraqlarını təmin etmir, həm də daxildə sabitliyə qarşı sistemli təhdid yaradırlar. Onun Kremlin emissarları ilə gizli danışıqlar aparması, özünün baş nazirliyə dönüşü və ya Paşinyanın devrilməsi ssenarilərində iştirak etməsi Ermənistanın gələcəyi üçün təhlükəli presedent yaradır. Bu, həm siyasi etikanın, həm də hayların onsuz da zəif olan dövlətçiliyinin zədələnməsi deməkdir.

*Səxavət HƏMİD*
*XQ*

# Aİ–Macarıstan: Dəyərlərin dialoqu

(əvvəli 1-ci səhifədə)

Maddə 7(1) prosedurunun icrası çərçivəsində Aİ Şurası üzv ölkənin nümayəndəsini dinləmək və müzakirələr aparmaqla məsələni siyasi-hüquqi çərçivədə dəyərləndirir. 2025-ci ilin may ayında baş tutacaq səkkizinci dinləmə bu prosesin davamlı xarakter daşıdığını göstərir və Aİ-nin problemin sülh yolu ilə və qarşılıqlı anlaşma əsasında həllinə sadiq qalmaq niyyətindən xəbər verir.

Qeyd etməliyik ki, bu dinləmələr bir tərəfdən Aİ institutlarına üzv dövlətin arqumentlərini dinləmək və vəziyyəti obyektiv qiymətləndirmək imkanı yaradır, digər tərəfdən isə həmin üzv ölkəyə öz mövqeyini, atılmış islahat addımlarını ətraflı təqdim etmək və yanlış anlaşılmalara aydınlıq gətirmək fürsəti verir.





Macarıstan tərəfi dəfələrlə dinləmələrdən istifadə edərək öz qanunvericilik təşəbbüslərinin milli suverenlik çərçivəsində həyata keçirildiyini və Aİ-nin dəyərləri ilə ziddiyyət təşkil etmədiyini vurğulayıb. Budapeştin əsas mövqeyi bundan ibarətdir ki, hər bir üzv dövlətin fərqli hüquqi və mədəni konteksti nəzərə alınmalı, Aİ-nin dəyərləri isə bəzən dəyişən sosial-siyasi reallıqlara uyğun şəkildə şərh edilməlidir.

Digər üzv dövlətlər və Avropa İttifaqı institutları isə bu prosedura daha çox Aİ-nin "daxili müqavilə"sinin qorunması prizmasından yanaşırlar. Onların fikrincə, Aİ yalnız iqtisadi əməkdaşlıq platforması deyil, həm də ortaq prinsiplər və dəyərlər birliyidir. Buna görə də, istənilən üzv ölkədə bu dəyərlərin aşınması ehtimalı belə ciddi şəkildə müzakirə olunmalıdır.

Bu mənada Maddə 7(1) Aİ-nin prinsiplərinin dayanıqlılığı üçün test kimi də qiymətləndirilir. Siyasi cəbhədə isə bu prosedurun son mərhələsinə – yəni səsvermə yolu ilə həmin üzv ölkənin Şura səsverməsində səlahiyyətlərinin dayandırılmasına keçid yalnız yekdil qərarla mümkündür.

Hazırda isə Aİ-nin gələcəyi baxımından vacib sual budur: müxtəlif siyasi sistemlərə malik üzv dövlətlər arasında dəyərlər üzərində necə konsensus əldə etmək olar?

Macarıstan parlamentində təqdim olunan və ictimai təşkilatlara yönəlmiş yeni qanun layihəsi Aİ daxilində ciddi müzakirələr doğurub. Layihəyə əsasən, xarici maliyyə dəstəyi alan qeyri-hökumət təşkilatlarının qeydiyyata alınması və əlavə nəzarət prosedurlarına cəlb edilməsi nəzərdə tutulur.

Həmin təşəbbüsə Budapeşt hökuməti milli maraqların qorunması, ictimaiyyətin məlumatlandırılması və xarici təsirlərin məhdudlaşdırılması prizmasından yanaşır. Lakin bir sıra beynəlxalq təşkilatlar və QHT-lər bu təşəbbüsün müstəqil cəmiyyətin fəaliyyəti üçün risklər yarada biləcəyini bildirirlər. Bəzi müşahidəçilər isə bu qanunun başqa ölkələrdə, xüsusilə də Şərqi Avropada qəbul edilən analoji normativ aktlarla oxşarlıqlarını qeyd edirlər.

Bu vəziyyət Avropada "qeyri-hökumət təşkilatları üçün hüquqi çərçivə necə olmalıdır?" sualını da yenidən aktuallaşdırır. 2025-ci ilin mayında Avropa Parlamentində keçirilən xüsusi debat Macarıstan məsələsinə yanaşmanın vahid olmadığını göstərdi. Parlament üzvləri arasında məsələyə münasibətlər fərqli olsa da, ortaq bir narahatlıq hiss olunur: Aİ-nin institutları üzv dövlətlərdə demokratik prosesləri necə izləməli və bu proseslərə hansı alətlərlə reaksiya verməlidir?

Debat zamanı çıxış edən deputatlar, xüsusilə "yaz təmizliyi qanunu" kimi təqdim olunan yeni qanunvericilik təşəbbüslərinin ictimai iştirakçılıq və ifadə azadlığı baxımından necə şərh ediləcəyi barədə suallar qaldırdılar. Debatlar Aİ daxilində demokratiya və hüquqi dövlət prinsipləri ilə bağlı fikirlərin müxtəlifliyini ortaya qoyur. Bir tərəfdə milli suverenlik və daxili siyasətə müdaxilənin məhdudlaşdırılması, digər tərəfdə isə ümumi Avropa dəyərlərinə sadiqliyin qorunması mövqeləri arasında tarazlıq axtarılır.

Parlamentdə bəzi deputatlar Aİ fondlarının istifadəsi məsələsini də gündəmə gətiriblər. Onların fikrincə, fondların təyinatı iqtisadi, siyasi və hüquqi mühitin dəyərlərə uyğunluğu ilə bağlı olmalıdır. Bu isə "şərtli maliyyə dəstəyi" anlayışını gündəmə gətirir.

Macarıstan isə bu yanaşmanın selektiv tətbiqini və daxili suveren hüquqlara müdaxilə riski daşıdığını bildirərək, bu məsələdə daha şəffaf və obyektiv meyarların müəyyən olunmasını tələb edir.

Macarıstanla bağlı son proseslər Aİ daxilində bütövlükdə birliyin struktur və dəyərlər sisteminin gələcəyi ilə bağlı daha geniş suallar doğurur. Avropa İttifaqı üzv dövlətlərin müxtəlif siyasi, mədəni və hüquqi ənənələrini qəbul edərək, ortaq prinsiplər üzərində birliyini qorumağa çalışır. Lakin bu birlik, bəzən çox mürəkkəb dialoqlar və çətin qərarlar tələb edir.

2025-ci il Avropa Parlamenti seçkilərinin bu baxımdan mühüm əhəmiyyəti var. Həm seçicilərin verdiyi mandat, həm də institutların atacağı addımlar Aİ-nin gələcək kursunu müəyyən edəcək. Macarıstanla dialoq isə bu gələcəyin hansı dəyərlər üzərində qurulacağına dair simvolik məna daşıyır.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Budapeştdən Bakıya dostluq körpüsü



**Azərbaycanla Macarıstan arasında münasibətlər müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə yüksələn xətt üzrə inkişaf etməkdədir. Bu iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildə qurulmuşdur. Bu əlaqələr zamanla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. 2009-cu ildə Macarıstanın Azərbaycanda səfirliyi yaradılmışdır. Ölkəmizin isə Budapeştdəki səfirliyi 2004-cü ildə fəaliyyətə başlamışdır.**

2014-cü ildə Budapeştdə "Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır. 2023-cü ildə isə əlaqələr "Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ilə daha da möhkəmləndirilmişdir. Ölkələrimiz arasında parlamentlərarası əlaqələr də yüksək səviyyədə qurulub. Mayın 20-də Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Macarıstanda keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün bu ölkəyə işgüzar səfəri də bu qarşılıqlı əlaqələrin sağlam təməllərinin göstəricisidir və onu daha da möhkəmləndirir. Qeyd edək ki, təşkilatın Birinci Zirvə görüşü Azərbaycanın təşəbbüsü ilə 2024-cü ildə Şuşa şəhərində keçirilmişdir və burada Qarabağ Bəyannaməsi imzalanmışdır. Ölkə başçımız İlham Əliyev Macarıstana işgüzar səfəri zamanı mətbuata verdiyi bəyanatda demişdir: "Bu estafeti bizdən Macarıstan alıb, biz bunu alqışlayırıq. Bu, bir daha onu göstərir ki, Macarıstan öz tarixi köklərinə çox bağlıdır, bu, bizi də çox sevindirir".

Müasir dövrdə iki dost ölkə, strateji tərəfdaş arasında bir çox məsələlər üzrə mövqelərin üst-üstə düşməsi Azərbaycan və Macarıstan siyasi əlaqələrinin inkişafına təkan verir. Həm ümummilli liderimiz Heydər Əliyev, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu dost ölkəyə mütəmadi rəsmi və işgüzar səfərləri baş tutmuş, eyni zamanda, Macarıstanın rəsmi şəxsləri ölkəmizə çoxsaylı səfərlər etmişlər. Yəni iki ölkə arasında qarşılıqlı səfərlər, yüksək səviyyəli görüşlər və diplomatik təmaslar mütəmadi olaraq həyata keçirilir. Bu görüşlər və imzalanan müxtəlif sənədlər çərçivəsində iki ölkə arasında siyasi dialoq, qarşılıqlı dəstək və əməkdaşlıq sahələri müəyyən edilmiş, regional və beynəlxalq məsələlər, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri kimi mövzular müzakirə olunmuşdur.

Enerji sahəsində qarşılıqlı əməkdaşlıq Macarıstanın enerji təhlükəsizliyini artırmaq və Azərbaycanla bu sahədəki əlaqələri gücləndirmək üçün olduqca əhəmiyyətlidir. Macarıstan Azərbaycanın neft və qaz yataqlarında pay sahibidir. Müasir dünyamız üçün aktual olan yaşıl enerji sahəsində əməkdaşlıq perspektivləri də olduqca genişdir. Azərbaycanın enerji resursları və Macarıstanın texnoloji bacarıqları arasında qarşılıqlı faydalı əməkdaşlıq potensialı mövcuddur. Bu sahədə birgə layihələrin həyata keçirilməsi hər iki ölkənin inkişafında mühüm rol oynayır.

Ölkələrimiz arasında iqtisadi əlaqələr də yüksək səviyyədədir. Azərbaycan–Macarıstan Hökumətlərarası Birgə Komissiyası iqtisadi əməkdaşlığın inkişafına mühüm töhfələr verir. Bu komissiyanın iclasları vasitəsilə ticarət, investisiya, enerji və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə edilir. Son illərdə iki ölkə arasında ticarət dövriyyəsi artmışdır.

Azərbaycan və Macarıstan arasında mədəniyyət və təhsil sahələrində də geniş əməkdaşlıq mövcuddur. Macarıstanın müxtəlif universitetlərində azərbaycanlı tələbələr təhsil alır və bu, iki ölkə arasında mədəni mübadiləni gücləndirir. Eyni zamanda, Macarıstanda Azərbaycan mədəniyyətini tanıdan tədbirlər, sərgilər və konsertlər təşkil edilir. Bu cür fəaliyyətlər xalqlar arasında dostluq və anlaşmanın inkişafına xidmət edir. Azərbaycanın Şuşa şəhəri Macarıstanın Gyöngyöş, Ağdam şəhəri ilə isə Tisavaşvari şəhəri ilə qardaşlaşmışdır.

Azərbaycan və Macarıstan beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər. Hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir və ortaq maraqları müdafiə edirlər. Xüsusilə enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri kimi regional məsələlərdə əməkdaşlıq önəmli yer tutur.

Azərbaycan və Macarıstan arasında əlaqələrin gələcək inkişafı üçün bir çox sahələrdə əməkdaşlıq genişləndirilməkdədir. Xüsusilə yaşıl enerji, rəqəmsal texnologiyalar və kənd təsərrüfatı sahələrində birgə layihələrin həyata keçirilməsi hər iki ölkənin iqtisadiyyatına müsbət təsir göstərir. Bundan əlavə, gənclər və təhsil sahələrində əməkdaşlığın artırılması xalqlar arasında daha da yaxın əlaqələrin qurulmasına şərait yaratmaqdadır.

Bununla yanaşı, regional və beynəlxalq məsələlərdə ortaq mövqeyin qorunması və inkişafı iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Azərbaycan və Macarıstan arasında münasibətlər dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında inkişaf edir. Bu əlaqələr müxtəlif sahələrdə əməkdaşlığa və qarşılıqlı faydaya zəmin yaradır.

*Nuray ƏLİYEVA,*
*Naxçıvan MR Ali Məclisinin deputatı,*
*filologiya elmləri doktoru*

# XİN heyəti Meksikada

**Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 23-də Meksika Birləşmiş Ştatlarına səfər edib.**





Səfər çərçivəsində Meksika Xarici İşlər Nazirliyinin Çoxtərəfli Əlaqələr və İnsan Hüquqları məsələləri üzrə nazir müavini Enrike Oçoa Martinez, Meksikanın iqlim məsələləri üzrə baş danışıqçısı Kamila Zepeda və Meksikanın nüfuzlu beyin mərkəzlərindən biri olan Beynəlxalq Əlaqələr üzrə Meksika Şurasında görüşlər keçirilib.

Nazir müavini Enrike Oçoa Martinez ilə keçirilən görüşdə beynəlxalq təşkilatlar və digər çoxtərəfli platformalar çərçivəsində Azərbaycan və Meksika arasındakı səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub. Y.Rəfiyev meksikalı həmkarını Azərbaycanın xarici siyasət prioritetləri, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, eləcə də qarşıdan gələn dövrdə çoxtərəfli platformalarda Azərbaycanın təşəbbüsü və ev sahibliyi ilə keçiriləcək tədbirlər barədə ətraflı məlumatlandırıb. Tərəflər iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq məsələlərini də müzakirə edib, bu çərçivədə Azərbaycanın COP29-a Sədrliyinə dair fikir mübadiləsi aparıb.

Meksikanın iqlim məsələləri üzrə baş danışıqçısı Kamila Zepeda ilə keçirilmiş görüşdə Azərbaycanın COP29-a Sədrliyi çərçivəsində əldə etdiyi tarixi nailiyyətlər vurğulanıb, bu xüsusda Azərbaycanın uğurlu Sədrliyi təqdir edilib.

*XQ*

# Azərbaycan regionda və Mərkəzi Asiyada innovasiya lideridir




**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın əldə etdiyi digər uğurlu göstərici Bakının reytinqdə "İlin şəhəri" olaraq seçilməsidir. Paytaxt şəhər, xüsusilə elektron kommersiya, pərakəndə satış, təhsil, eləcə də sosial-əyləncə sektorunda innovativ texnologiyaların tətbiqi üzrə rəqiblərindən öndədir. Bununla yanaşı, Bakı tədbirlər (31), logistika (65), səyahət (71), onlayn bazarlar (91) və "SaaS" xidmətləri kateqoriyalarında da ilk qlobal yüzlükdə yer alıb.

Qurumun hesabatında startap ekosisteminin ümumi icmalı da verilib. Bu xüsusda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin aparıcı dövlət qurumu olaraq yerli ekosistemin inkişafı, innovasiyaların təşviqi və rəqəmsallaşma istiqamətində həyata keçirdiyi fəaliyyət vurğulanıb. Son illərdə ölkəmizdə innovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi və beynəlxalq tərəfdaşlıqların formalaşmasında İRİA-nın müstəsna rolu qeyd edilib. Bununla yanaşı, hesabatda İRİA-nın təşəbbüsü ilə keçirilən "IDDA Awards", eləcə də agentliyin tərəfdaşı olduğu "Baku ID" və "INMerge Innovation Summit" kimi tədbirlərin əhəmiyyəti və ekosistemə verdiyi töhfələr öz əksini tapıb.

Xatırladaq ki, Azərbaycan "StartupBlink" qlobal reytinqində 2021-ci ildə 89, 2022-ci ildə 85, 2023-cü ildə 84 və 2024-cü ildə isə 80-ci mövqedə olub. Bu il ümumilikdə 118 ölkənin və 1473 şəhərin innovasiya göstəriciləri dəyərləndirilib. Reytinqin ilk beşliyində ABŞ, Birləşmiş Krallıq, İsrail, Sinqapur və Kanada yer alıb.

Ötən ilin öktyabr ayında Bakıda Azərbaycan İnnovasiya Mərkəzinin açılması isə bu sahədə atılmış olduqca mühüm addımdır. Böyük ekosistem oyunçusu olan bu mərkəz texnoloji sahibkarlar, startapçılar, innovatorlar üçün vahid mərkəz rolunu oynayır. Eyni zamanda, mərkəzdə yerli və xarici startaplar inkubasiya və akselerasiya proqramlarında iştirak edərək investorlarla görüş keçirmək, tərəfdaşlıq yaratmaq və layihələrini təqdim etmək imkanı qazanırlar. Bütövlükdə isə, Azərbaycan İnnovasiya Mərkəzi ekosistemin oyunçularını, maraqlı tərəfləri, xarici şirkətləri və tərəfdaşları bir araya gətirən, şəbəkələşməyə şərait yaradan, yeni tərəfdaşlar əldə etməyə imkan verən bir məkana çevrilməkdədir.

Ekspertlər hesab edirlər ki, Azərbaycanda innovasiya ekosisteminin inkişafı istiqamətində atılan bu addımlar və əldə edilən uğurlar dayanıqlı iqtisadi artım və ölkəmizin qlobal müstəvidə rəqabət qabiliyyətinin gücləndirilməsi üçün güclü zəmin yaradır. Onların fikrincə, Azərbaycan İnnovasiya Mərkəzi ölkədə innovasiya və startap ekosisteminin bütün maraqlı tərəflərini birləşdirən güclü bir innovativ mərkəzə çevriləcək.

Yaxın zamanlarda isə Sumqayıt və Gəncə şəhərlərində də belə mərkəzlərin açılması planlaşdırılır. Heç şübhəsiz, bu kimi tədbirlər ölkəmizdə ikin inkişaf dövrünə qədəm qoyan startapların dəstəklənməsinə, onların investisiyalara əlçatanlığının asanlaşdırılmasına gətirib çıxaracaq.

Göründüyü kimi, son illər Azərbaycanda innovasiya yönümlü iqtisadi modelə keçid istiqamətində əhəmiyyətli addımlar atılır. Rəqəmsal iqtisadiyyatın inkişafı, texnoloji sahibkarlığın dəstəklənməsi və startap ekosisteminin formalaşdırılması getdikcə bu siyasətin əsas sütunlarından birinə çevrilir. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqət və verdiyi tapşırıqlar nəticəsində ölkədə innovativ təşəbbüslərin genişlənməsi üçün əlverişli hüquqi və institusional mühit formalaşır.

### "İNNOKLUB" – yeni ideyalar yuvası

Son illər ölkəmizdə startap ekosisteminin formalaşması və inkişafı prosesi sürətlə davam edir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq ölkədə startapların və innovasiyalı müəssisələrin inkişafını stimullaşdırmaq, effektiv koordinasiyanı təmin etmək, ekosistem oyunçularına dəstək tədbirlərini genişləndirmək və yerli startaplara investisiya imkanlarını artırmaq məqsədilə 2021-ci ildə "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində "İNNOKLUB" təsis olunub. Bu platforma əsasən ideyası olan gənclərin, startapçıların və innovatorların potensialını reallaşdırmaq, onları bazara çıxış, maliyyələşmə və şəbəkələşmə imkanları ilə təmin etmək məqsədi daşıyır. "İNNOKLUB" həmçinin maarifləndirici sessiyalar, mentorluq proqramları və təlimlərlə yerli insan kapitalının inkişafında mühüm rol oynayır.

Burada keçirilən tədbirlər yalnız texnoloji bacarıqların artırılmasına deyil, eyni zamanda biznes planlaşdırma, kommersiyalaşdırma və beynəlxalq bazarlara inteqrasiya kimi vacib mərhələlərə dəstək göstərməyə yönəlib. Nəticədə, çoxsaylı ideyalar real biznes layihələrinə çevrilərək ekosistemin tərkib hissəsinə daxil olur.

2022-ci ildə isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında imzalanmış qrant müqaviləsinə əsasən "Azərbaycanda innovasiya siyasətinin qurulması" layihəsinə start veilib. Bununla da Azərbaycan hökumətinin innovasiyaya əsaslanan iqtisadi inkişaf modelinin tətbiq olunması niyyəti bir daha nümayiş etdirilib. Koreyanın uzunmüddətli texnoloji inkişaf təcrübəsi ilə bu prosesə əhəmiyyətli töhfələrin verilməsinin əsası qoyulub.

Layihə çərçivəsində innovasiya ekosisteminin əsas komponentlərinin – qanunvericilik, idarəetmə mexanizmləri, investor münasibətləri və insan kapitalının inkişafı sahəsində islahatların təşviq olunması nəzərdə tutulur. Bu, eyni zamanda dövlət orqanları, özəl sektor və akademik dairələr arasında daha səmərəli koordinasiyanın qurulmasını təmin edir.

### İnnovasiya mərkəzi – gələcəyin texnoloji ünvanı

Keçən ilin oktyabr ayında Bakıda fəaliyyətə başlayan Azərbaycan İnnovasiya Mərkəzi ölkənin texnoloji gələcəyini formalaşdırmaq baxımından strateji bir hadisə oldu. Bu mərkəz təkcə fiziki məkan deyil, həm də innovasiya yönümlü ideyaların, layihələrin və tərəfdaşlıqların bir araya gəldiyi mühüm platformadır. Burada fəaliyyət göstərən startaplar inkubasiya və akselerasiya proqramları vasitəsilə həm yerli, həm də xarici investorlarla əlaqə qurmaq imkanı əldə edirlər.

Mərkəz, həmçinin beynəlxalq əməkdaşlıqların genişlənməsi üçün əlverişli şərait yaradır. Xarici texnoloji şirkətlər, investorlar və inkişaf mərkəzləri ilə əlaqələr qurularaq Azərbaycanın innovasiya bazarı qlobal miqyasda tanıdılır. Bu isə Azərbaycanın regionda texnologiya və innovasiya mərkəzinə çevrilməsi məqsədinə doğru atılmış mühüm addımlardan biri sayılır.

Azərbaycanda formalaşmaqda olan startap və innovasiya ekosistemi inklüziv, açıq və dinamik bir struktur üzərində qurulur. Dövlətin tənzimləyici və təşviqedici rolu, özəl sektorun fəallığı, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin bu sahəyə inteqrasiyası geniş miqyaslı tərəfdaşlıq mühitinin yaranması ilə nəticələnir.

Yaxın illərdə məqsəd bu ekosistemi daha da gücləndirmək, yerli texnologiya məhsullarının beynəlxalq bazarlarda rəqabətqabiliyyətini artırmaq və ölkəyə daxil olan texnoloji investisiyaların həcmini genişləndirməkdir. Eyni zamanda, regionlarda da inklüziv inkişafı təmin edəcək və iqtisadiyyatın şaxələndirilməsinə xidmət göstərəcək innovasiya mərkəzlərinin yaradılması nəzərdə tutulur.

Azərbaycan startap və innovasiya sahəsində yeni mərhələyə qədəm qoyur. Formalaşan ekosistem artıq yerli sahibkarlar üçün yeni imkanlar açmaqla yanaşı, ölkəmizin beynəlxalq innovasiya mühitində mövqeyini möhkəmləndirir. Qarşıdakı illərdə atılacaq addımlar, həyata keçiriləcək layihələr və beynəlxalq əməkdaşlıqlar bu sahədə Azərbaycanın rəqəmsal və texnoloji mərkəzə çevrilməsini daha da yaxınlaşdıracaq.

# Beynəlxalq Nəqliyyat Forumunun növbəti sammiti Bakıda keçiriləcək

**Mayın 21–23-də Almaniyanın Leypsiq şəhərində "Beynəlxalq Nəqliyyat Forumu 2025" Sammiti keçirilib. Toplantıda ölkəmiz rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Sammitə 80-dən artıq ölkədən 1200-dən çox nümayəndə qatılıb.**




"Qlobal şoklara qarşı nəqliyyatın davamlılığı" mövzusuna həsr olunmuş sammitin iştirakçıları təbii fəlakətlər, pandemiyalar, kibertəhlükələr və geosiyasi böhranlar kimi pozucu amillərin yaratdığı çətinliklər fonunda nəqliyyat sistemlərinin dayanıqlığının təmin olunması yollarını müzakirə ediblər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Rəhman Hümmətov Nəqliyyat Nazirləri Şurasının iclasında çıxış edərək ölkəmizin qlobal şoklara davamlı nəqliyyat sistemlərinin yaradılması istiqamətində atdığı addımları təqdim edib. O, şəhər infrastrukturunda rəqəmsallaşma, o cümlədən tətbiq olunan "rəqəmsal əkiz" layihəsi, eləcə də yaşıl və dayanıqlı nəqliyyat sistemlərinin inkişafı üzrə görülən işlər barədə məlumat verib.

Azərbaycanın regional nəqliyyat layihələrindəki fəal iştirakını və bu sahədə beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayan nazir müavini qeyd edib ki, Qarabağ bölgəsində münaqişədən sonrakı dövrdə həyata keçirilən bərpa işləri çərçivəsində müasir magistral yolların, hava limanlarının tikintisinə və şəhər infrastrukturunun yenidən qurulmasına böyük həcmdə sərmayə yönəldilib. Bu da regionun dirçəlməsi və nəqliyyat əlaqələrinin canlanması baxımından mühüm əhəmiyyət daşıyır.

Toplantıda 2025–2026-cı illər üzrə Beynəlxalq Nəqliyyat Forumu Sammitinə prezidentlik Çilidən Azərbaycana təhvil verilib. Xatırladaq ki, ölkəmiz bu vəzifəyə 2023-cü ildə üzv dövlətlərin yekdil qərarı ilə seçilib və ilk dəfə olaraq prezidentlik missiyasını üzərinə götürüb. Sammitdəki çıxışı zamanı bu barədə danışan nazir müavini R.Hümmətov deyib: "Azərbaycan üçün bu prezidentlik yalnız bir vəzifə deyil, daha innovativ, yaşıl və daha əlaqəli nəqliyyat sistemlərinin təşviqi istiqamətində geniş səylərimizin davamıdır. Biz bilirik ki, nəqliyyat təkcə infrastruktur deyil, iqtisadi inkişaf, regional əməkdaşlıq və sosial inklüziya üçün bir vasitədir".

Rəhman Hümmətov sammit çərçivəsində bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlər də keçirib. Bu görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər və əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Sammit çərçivəsində, həmçinin Beynəlxalq Nəqliyyat Forumunun tərəfdaşlarının məhsul, xidmət və innovativ təşəbbüslərini təqdim etdikləri sərgi təşkil olunub. Burada Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin stendi də nümayiş etdirilib. Beynəlxalq Nəqliyyat Forumunun baş katibi Yunq Ta Kim, sammitdə iştirak edən nazirlər və nümayəndə heyətlərinin rəhbərləri stendlə tanış olublar. Ziyarətçilərə Azərbaycanın nəqliyyat sahəsindəki nailiyyətləri ilə bağlı ətraflı məlumat verilib.

Xatırladaq ki, Beynəlxalq Nəqliyyat Forumunun 69 üzvü var. Azərbaycan Respublikası 1998-ci ildən bu təşkilatın həqiqi üzvüdür. 2008-ci ildən etibarən mütəmadi olaraq təşkil olunan bu sammit qlobal nəqliyyat siyasətinin formalaşmasında əhəmiyyətli rol oynayır.

# Ölkəmizdə qazölçmə qovşaqları buraxılacaq

**Azərbaycanda ilk dəfə olaraq Gəncə Cihazqayırma Zavodunda qazpaylayıcı şəbəkələr üçün qazölçmə qovşaqları buraxılışına başlanılıb. Müəssisədən mediaya bildirilib ki, istehsal üçün qısa müddətdə yeni sexlər tikilib, müasir texnoloji avadanlıqlar quraşdırılıb. Qaz sayğaclarının hissələrinin mexaniki emalı, yığımı və test olunması üçün sahələr yaradılıb. Hazırda bu sahədə çalışacaq mütəxəssislərin yetişdirilməsi istiqamətində zavodda mühüm tədbirlər həyata keçirilir.**



Onun sözlərinə görə, hazırda Gəncə Cihazqayırma Zavodunda ildə 500 minə yaxın qaz sayğacı istehsal olunur. Zavod fəaliyyətə başladığı dövrdə isə illik istehsal gücü 300 min ədəd təşkil edib. V.Rəhimov qeyd edib ki, gələcəkdə ehtiyac yaranacağı təqdirdə istehsal prosesi genişləndirilə bilər. Bunun üçün müəssisənin texniki imkanları və insan resursları kifayət qədərdir. Hazırda isə zavodda 250–270 nəfər çalışır.

Xatırladaq ki, Gəncə Cihazqayırma Zavodunun qaz sayğacları, əsasən, ölkə daxilindəki tələbatı qarşılayır, su sayğacları isə Qazaxıstan, Özbəkistan, Gürcüstan və Rusiyaya ixrac olunur. Müəssisənin enerji resurslarının ölçülməsi sahəsində ixtisaslaşdığını bildirən baş mühəndisin müavini onu da deyib ki, 2022-ci ildən etibarən burada istehsal olunan su sayğacları ölkənin su təchizat sistemində geniş istifadə olunur və etibarlılığı ilə seçilir.

Son illər Azərbaycan Dövlət Neft Şirkətində həyata keçirilən islahatların nəticəsi olaraq yerli istehsala xüsusi önəm verildiyini vurğulayan Vasif Rəhimovun sözlərinə görə, əvvəllər idxal edilən bəzi məhsulların ölkə daxilində istehsalının təşkili ilə bağlı təşəbbüsə qoşulan Gəncə Cihazqayırma Zavodu artıq məişət qaz sayğacları və onların montaj hissələri – elektron modullar, qoruyucu qutular, müxtəlif təyinatlı plomblar və digər komponentlərin buraxılışını təşkil edib.

Yeri gəlmişkən, məişət tipli qaz sayğaclarının yerli istehsalın hesabına təmin olunması məqsədi ilə 2021-ci il noyabrın 4-də "Azəriqaz" İstehsalat Birliyi ilə "Gəncə Cihazqayırma Zavodu" ASC arasında memorandum imzalanıb. Memoranduma əsasən zavod tərəfindən texniki tələblərə, eyni zamanda, meteroloji parametrləri və texniki xüsusiyyətləri standartlara uyğun olan məişət tipli qaz sayğaclarının istehsal olunması və istehsal olunan qaz sayğaclarının "Azəriqaz" tərəfindən xidməti sahələrdə quraşdırılması nəzərdə tutulub.

Memorandum çərçivəsində ilkin olaraq 2 min ədəd qaz sayğacının "Azəriqaz"a təqdim olunması təmin edilib. Həmin sayğaclar sınaq qurğularında yoxlanılıb və eyni zamanda, "Azəriqaz"ın qaz şəbəkəsində quraşdırılması həyata keçirilib. Sözügedən yoxlama və sınaqlar zamanı heç bir qüsur aşkar edilməyib. Artıq 2023-cü ilin mayında "Azəriqaz"ın məişət tipli qaz sayğaclarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi məqsədi ilə "Gəncə Cihazqayırma Zavodu" ilə müqavilə bağlanıb.

Ümumilikdə, "Azəriqaz" ilə "Gəncə Cihazqayırma Zavodu" arasında əməkdaşlıq çərçivəsində sayğaclara olan tələbatın ödənilməsi üçün SOCAR-ın idxaldan asılılığının azaldılması məqsədilə qaz sayğaclarının alqı-satqısının yerli istehsal hesabına həyata keçirilməsi, yerli sahibkarlığın inkişafına dəstəyin verilməsi, xarici valyutanın ölkədən kənara çıxmasının qarşısının alınması, şəffaflığın təmin edilməsi, eləcə də qaz sayğaclarının təmiri və servis xidməti ilə bağlı məsələlərin asanlaşdırılması və ucuzlaşdırılmasının təmin edilməsi nəzərdə tutulub.

# Dəmiryolçularımız Çin limanlarında

**"Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Arif Ağayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çində işgüzar səfərdə olub.**



QSC-dən bildirilib ki, səfər çərçivəsində ADY nümayəndələri Sian və Çendu şəhərlərində yerləşən quru limanlarının fəaliyyəti və infrastruktur imkanları, eyni zamanda, limanlarda həyata keçirilən müasir logistika həlləri ilə tanış olub, liman rəhbərlikləri ilə görüşlər keçiriblər.

Görüşlərdə Orta Dəhlizə yüklərin cəlb edilməsi, logistika imkanlarının genişləndirilməsi və qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə edilib.

Qeyd edək ki, Sian və Çendu Çinin qərbində yerləşən iki əsas nəqliyyat və iqtisadi mərkəzdir. Bu şəhərlər Orta Dəhliz vasitəsilə Çinlə Avropa arasında ticarət və logistika əlaqələrinin inkişafında mühüm rol oynayır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Bakı–Tbilisi–Ceyhan neft kəmərinin 20 yaşı tamam oldu

## *Bu marşrut ötən dövrdə Xəzərdən Aralıq dənizinə 600 min tona yaxın "qara qızıl" nəql edib*




**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, Azərbaycan neftinin dünya bazarına çatdırılması üçün əsas ixrac marşrutu kimi Bakı – Tbilisi– Ceyhan kəmərinin seçilməsi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə dəqiqləşdirilib. Bu, həm də sözügedən kəmərin reallaşmasına dair son siyasi qərarın verilməsi demək idi. Həmin il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, eləcə də ABŞ-ın energetika naziri tərəfindən Bakı – Tbilisi – Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə bu layihəyə dair ilkin razılaşma əldə olunub.

Növbəti illərdə Heydər Əliyevin siyasi iradəsi sayəsində həmin layihəni maraqlı tərəflərlə uzlaşdırıb razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq, nəhayət, onu imzalamaq mümkün olub. Təsadüfi deyil ki, Ulu öndər 1999-cu il sentyabrın 20-də Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdəki çıxışında demişdir: "Mən bu gün bəyan edirəm ki, Azərbaycan neftinin, Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün çox böyük əhəmiyyət daşıyan Bakı – Ceyhan neft kəməri tikilməlidir, istifadəyə verilməlidir."

Nəhayət, Ümummilli liderin qətiyyəti sayəsində "Bakı – Tbilisi – Ceyhan" layihəsi həyata vəsiqə alıb. Belə ki, ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulun "Çırağan" sarayında "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş" imzalanıb. Bununla da, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı–Tbilisi–Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılıb.

2002-ci il avqustun 1-də BTC neft kəmərinin tikintisini və istismarını həyata keçirmək üçün Kayman adalarında "BTC Co." şirkəti təsis edilib. Sentyabr ayının 18-də isə Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub. Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin aprel ayında tikinti işlərinə başlanılıb.

Ulu öndərin müəllifi olduğu bu nəhəng enerji layihəsi onun siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində reallığa çevrilib. Təsadüfi deyil ki, İlham Əliyev Azərbaycanın Baş naziri kimi fəaliyyətinin ilk günlərində, 2003-cü il avqustun 11-də BTC əsas ixrac neft boru kəmərinin Azərbaycan hissəsində, Bakı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış olaraq tövsiyə və tapşırıqlarını verib.

2004-cü il fevralın 3-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda "Gülüstan" sarayında BTC ixrac boru kəmərinin tikintisinin maliyyələşdirilməsi üçün layihənin son maliyyələşmə sənədləri paketi imzalanıb. Həmin il Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirilib. "Qızıl qaynaq" adlanan bu mərasimdə hər iki ölkənin dövlət başçıları kəmərin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdiriblər.

2005-ci il mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə hədiyyə olaraq Səngəçal terminalındakı BTC baş nasos stansiyasının neftlə doldurulmasına start verilib. Ayın 25-də isə terminalda Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına başlanılıb. Həmin gün burada quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. Oktyabrın 25-də isə kəmərin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə bu ölkənin Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilib.

BTC kəməri ilə nəql edilən xam neft 2006-ci il mayın 28-də Türkiyənin Ceyhan terminalına çatıb. XXI əsrin ən böyük enerji layihələrindən sayılan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi isə iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirilib.

Xəzər regionundan dünyaya qapı açan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri hazırda Azərbaycanla yanaşı, bir sıra ölkələrin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. 2025-ci ilin birinci rübündə BTC ilə 7 milyon ton (təxminən, 54 milyon barel) xam neft nəql olunub. Bütövlükdə isə, 1768 kilometr uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyul ayında istismara veriləndən 2025-ci ilin birinci rübünün sonunadək, ümumilikdə, 598 milyon ton (4,5 milyard bareldən çox) xam neft nəql edib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 5932 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC boru kəməri, əsasən, Azərbaycandan "Azəri–Çıraq–Günəşli" yataqlar blokundan hasil edilən xam nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensatı (Qazaxıstan, Türkmənistan, eləcə də SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) da nəql olunur.

# Ağdam Sənaye Parkı sürətlə böyüyür



**(əvvəli 1-ci səhifədə)**

Nazirin sözlərinə görə, burada divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan "BAFCO İnvest" məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub. Xatırladaq ki, Ağdam Sənaye Parkı dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə yaradılıb.

Qeyd edək ki, ölkəmizin işğaldan azad olunmuş ərazilərində hazırda iqtisadi fəallığın artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Həmin ərazilərdə yaradılmış müasir istehsalat sahələri ölkədə qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verməklə yanaşı, məşğulluq strategiyasının həlli baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Ötən müddətdə işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarının fəaliyyəti bu baxımdan diqqət çəkir. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, mövcud sənaye parklarının rezidentlərinə idxal olunan texnika, texnoloji avadanlıqlar, eləcə də xammala görə 142 təsdiqedici sənəd verilib. Həmin sənədlər əsasında müəssisələr üçün, təqribən, 8 milyon manata yaxın vergi və rüsumlardan azadolma tətbiq olunub.

Qarabağ və Şərqi Zəngəzurda mövcud Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında indiyədək investisiya kapitalı 400 milyon manata yaxın 45 sahibkarlıq subyektinə rezidentlik, 8 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 53 sahibkarlıq subyekti tərəfindən 4 mindən artıq daimi iş yerinin yaradılması planlaşdırılıb. Artıq sözügedən sənaye parklarında görülmüş işlərə 136 milyon manatdan çox investisiya yatırılıb, 700 nəfərdən artıq daimi iş yeri yaradılıb.

# ABŞ ilə ticarət 2 dəfədən çox artıb



**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar – aprel aylarında Azərbaycanla ABŞ arasında ticarət əməliyyatlarının həcmi 461 milyon dollar (2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 250 milyon dollar və ya 2,2 dəfə çox) təşkil edib.**

Hesabat dövründə ABŞ ilə ticarət əməliyyatları ölkəmizin ümumi ticarət dövriyyəsinin 2,72 faizi həcmində olub. Bununla da ABŞ Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 7-ci yerə yüksəlib. Cari ilin yanvar-aprel aylarında Azərbaycandan ABŞ-a 24 milyon dollarlıq (2024-cü ilin eyni dövrü ilə müqayisədə 7,2 milyon dollar və ya 42,9 faiz çox) məhsul ixracı qeydə alınıb. Eyni zamanda, 2025-ci ilin yanvar-aprel aylarında ABŞ-dan Azərbaycana 437 milyon dollar (illik müqayisədə 242,7 milyon dollar və ya 2,2 dəfə çox) dəyərində idxal əməliyyatları icra olunub. Bu göstərici ilə ABŞ Azərbaycanın məhsul idxal etdiyi ölkələr sırasında 4-cü pilləyə yüksəlib.

Bundan başqa, cari ilin yanvar-aprel ayları ərzində Azərbaycandan ABŞ-a 24 milyon dollar (2024-cü ilin ilk 4 ayı ilə müqayisədə 7,3 milyon dollar və ya 44,1 faiz çox) dəyərində qeyri-neft məhsulları ixrac olunub. Qeyd edək ki, Azərbaycan 2025-ci ilin yanvar-aprel aylarında xarici ölkələrlə 16,917 milyard dollar (2024-cü ilin eyni dövrü ilə müqayisədə 3,3 milyard dollar və ya 24,1 faiz çox) dəyərində ticarət əməliyyatı aparıb.

Xarici ticarət dövriyyəsinin 8,785 milyard dolları ixracın, 8,133 milyard dolları isə idxalın payına düşüb. Bu da 2024-cü ilin ilk 4 ayındakı göstərici ilə müqayisədə müvafiq olaraq 616,1 milyon dollar (və ya 7,5 faiz) və 2,7 milyard dollar (və ya 48,8 faiz) çoxdur. Nəticədə, xarici ticarətdə 651,792 milyon dollarlıq müsbət saldo yaranıb ki, bu da 2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 2,1 milyard ABŞ dolları və ya 4,15 dəfə azdır.

# Dövlət hesabatları elektronlaşdırılır



**Maliyyə Nazirliyinin məlumatına görə, qurumun Büdcə Məlumatlarının İdarəetmə Sistemində dövlət borcu üzrə hesabatlığı təmin edən elektron modulun təqdimatı keçirilib.**

Nazirliyin məlumatına görə, yeni modulun əsas məqsədi kredit sazişləri çərçivəsində kredit vəsaitlərindən istifadə üzrə layihə idarəetmə qruplarının, icraçı qurumların və əsas borcalanların Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinə təqdim etdiyi hesabatları elektronlaşdırmaq, prosesin səmərəliliyini artırmaq, məlumat dövriyyəsini avtomatlaşdırmaqdır. Eyni zamanda, adıçəkilən modulun tətbiqi ilə hesabatların toplanılmasını, emal proseslərinin operativliyinin artırılmasını, vaxt itkisinin qarşısının alınmasını, məlumatların təhlükəsizliyini təmin etməkdir.

Dövlət qurumları nümayəndələrinin iştirak etdiyi tədbirdə qeyd olunub ki, dövlət borcu üzrə hesabatlıq funksionallığını gerçəkləşdirən elektron modulun istifadəyə verilməsi rəqəmsal idarəetmənin gücləndirilməsinin və innovativ texnologiyaların tətbiqi istiqamətində aparılan ardıcıl, məqsədyönlü və institusional islahatların tərkib hissəsidir.

# Yerli şirkətləri necə tanıyırıq?

## *Onlar özlərini təqdim edəcəklər*




**İyunun 18–21-də Bakı Ekspo Mərkəzində "Yerli şirkətlərin tanıtım sərgisi" keçiriləcək. İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, sayca 6-cı olan budəfəki sərgidə qida, İKT, təhsil, inşaat, sənaye, kənd təsərrüfatı, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 300-ə yaxın yerli şirkət öz məhsul və xidmətlərini nümayiş edəcək.**

Sərginin məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. Ziyarətçilər sərgidə müxtəlif sektorlarda fəaliyyət göstərən şirkətlərin yeni məhsul və xidmətləri ilə ilk dəfə tanış ola biləcəklər. Nüfuzlu şirkətlərin təchizat zəncirində iştirak imkanlarının genişləndirilməsi və yeni əməkdaşlıqların qurulması üçün bu il sərgi çərçivəsində mikro və kiçik sahibkarların iri şirkətlərin rəhbərləri ilə görüşləri təşkil olunacaq.

Qeyd edək ki, builki sərginin tərəfdaşları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi, Dövlət Reklam Agentliyi və "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası" İctimai Birliyidir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılışı olub




**Mayın 24-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada "Xarıbülbül" VIII Beynəlxalq Musiqi Festivalı öz işinə başlayıb. Prezident İlham Əliyevin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələrək builki festival dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə həsr olunub.**

Festivala Cıdır düzündəki açılış konsertində Üzeyir Hacıbəylinin "Ey Vətən" əsəri ilə start verilib. Konsertdə Üzeyir Hacıbəyli ilə Arif Məlikov, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov, Qara Qarayev, Müslüm Maqomayev, Niyazi, Oqtay Zülfüqarov, Tofiq Quliyevin əsərləri səslənib.

Bu il də "Xarıbülbül"ə yerli incəsənət xadimləri ilə yanaşı, digər ölkələrdən də musiqi kollektivləri və solo ifaçılar gəlib. Elə festivalın əsas məqsədlərindən biri də mədəni dialoqun inkişafına töhfə vermək, mütəxəssislər arasında fikir mübadiləsini təşviq etmək və gənc musiqiçilərin yaradıcılığını dəstəkləməkdir.

Açılış konsertində səhnəyə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin incəsənət xadimləri çıxıb: Azərbaycandan Afaq Abbasova, Cahangir Novruzov, Əkrəm Poladov, Fatimə Cəfərzadə, Fərhad Bədəlbəyli, Fərid Əliyev, İlahə Rüstəmova, İnara Babayeva, Orxan Hüseynov, Mahir Tağızadə, Murad Adıgözəlzadə, Polad Bülbüloğlu, Yusif Eyvazov, Qazaxıstandan Azamat Jeltırquzov, Türkiyədən Ferda Yetişər, eləcə də rəqqaslar Berfu Elmas (Türkiyə), Dayna Kıdıralıyeva (Qırğızıstan), Ebru Elmas (Türkiyə), Eldiyar Marat oğlu (Qırğızıstan), Mustafa Çagatay Ozmen (Türkiyə), Nurjamal Moldoqaziyeva (Qırğızıstan), həmçinin Azərbaycan Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri və teatrın Balet truppası, Azərbaycan Dövlət Xor Kapellası.

Azərbaycanın Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına ailələrin, həmçinin uşaqların da gəlməsindən məmnun olduğunu deyib. "Düşünürəm ki, hamı bu gözəl festivaldan razı qaldı. İstərdim ki, xaricdən daha çox insan, tanınmış simalar buraya gəlsinlər, Şuşa ilə tanış olsunlar və görsünlər ki, bura necə bir behiştdir", - deyə F.Bədəlbəyli vurğulayıb.

Azərbaycanın Xalq artisti, Milli Məclisin deputatı Polad Bülbüloğlu bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısı və tapşırığı ilə bu möhtəşəm festival keçirilir və o, bundan çox xoşbəxtdir.

Festivalın birinci günü axşam saatlarında isə Şuşanın digər gözəl memarlıq incilərindən biri – Xan qızı Natəvanın sarayının qarşısında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin ifasında "Üzeyir bəy belə deyərdi..." adlı teatr tamaşası nümayiş olunub. Tamaşa Üzeyir Hacıbəylinin felyetonlarından ilhamlanaraq hazırlanıb.

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra festival yenidən Şuşaya qayıdıb.

***XQ***

# Azərbaycanla Pakistan arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib

**Mayın 24-də nazir Ceyhun Bayramovun Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə telefon danışığı baş tutub.**




XİN-dən bildirilib ki, nazirlər arasında Azərbaycan–Pakistan strateji tərəfdaşlığından irəli gələn məsələlər, ikitərəfli, çoxtərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri müzakirə olunub. Mövcud strateji əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilərək, gələcək təmaslar üzrə planlar nəzərdən keçirilib.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# "Sosial iş və sosial tədqiqat"





**Bakıda Azərbaycan Universitetinin təşkilatçılığı ilə II beynəlxalq konfrans işə başlayıb.**

Sosial Tədqiqatlar Mərkəzi, Türkiyənin Fırat Universiteti və Rəcəb Tayyib Ərdoğan Universitetinin tərəfdaşlığı ilə "Konstitusiya və Suverenlik ili"nə həsr olunan məclisdə sosial iş təhsili və sosial siyasət sahəsindəki aktual məsələlər müzakirə edilib, bu sahədə təcrübə mübadiləsi aparılıb.

Məclisin açılışında Azərbaycan Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Səadət bildirib ki, Azərbaycan Universitetində 2009-cu ildən başlayaraq, sosial iş sahəsində mütəxəssis hazırlığı həyata keçirilir. Universitetdə kadr hazırlığı ilə bərabər, bu sahənin müxtəlif məsələləri elmi cəhətdən araşdırılır. 2023-cü ildə ilk belə konfrans keçirilib və qəbul edilən qərarların icrası təmin edilib. Səadət Əliyeva bu konfransın da işinin səmərəli olacağına, 2 günlük müzakirələrin elm və təhsil sahəsinin inkişafına əhəmiyyətli töhfə verəcəyinə əminliyini də ifadə edib.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleyman, Keyfiyyət Təminatı Agentliyinin sədri Tural Əhmədov, Ədliyyə Nazirliyinin xidmət rəisi Vüqar Ağayev, Rumıniyanın Alexandru Yoan Kuza Universitetinin professoru Stefan Kojukaru müzakirə edilən mövzuaların aktuallığını və önəmini vurğulayatraq mülahizələrini söyləyiblər.

Konfrans işini Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımovun rəhbərliyi ilə plenar iclasda davam etdirib. Birləşmiş Krallığın Nottingham Universitetinin professoru Yasuhiro Kotera və Rumıniyanın Alexandru Yoan Kuza Universitetinin professoru Stefan Cojocarunun məruzələri dinlənilib.

Bu gün konfrans işini davam etdirəcək.

***XQ***

# Bakıda növbəti kitab bayramı

**Dünən Beynəlxalq Türk Müəllifləri Birliyinin (BTMB) təşkilatçılığı ilə Bakıda IV Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı başlanıb. Elmlər Akademiyasının parkında reallaşacaq festivalın hər günü bir ölkəyə – Azərbaycan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Qazaxıstan, Türkiyə, Türkmənistan və Şimali Kipr Türk Respublikalarına həsr olunacaq.**



Təntənəli açılış mərasimində Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar Türk dünyasının sarsılmaz birliyinə, qardaş ölkələr arasındakı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcək IV Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının əhəmiyyətindən bəhs edib. Xalq yazıçısı əsrlər boyu kitabın insanların ilk və ən yaxın sirdaşına çevrildiyini, onun yetişməsində, kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşündə, hərtərəfli inkişafında əvəzsiz rol oynadığını bildirib. AYB sədri festivalın əsas məqsədinin iştirakçılar arasında mütaliə mədəniyyəti və oxu vərdişini inkişaf etdirmək, insanların kitaba marağını daha da artırmaq olduğunu söyləyib, tədbirə qatılan qardaş türk dövlətlərindən gələn qonaqlara təşəkkür edib.

Daha sonra AMEA-nın prezidenti akademik İsa Həbibbəyli festivalın türk dövlətlərinin dostluğunun, birliyinin daha bir parlaq nümunəsi olduğunu vurğulayıb. Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün çıxışında indiki tarixi mərhələnin Türk dünyası ilə inteqrasiyanın genişlənmə imkanlarının daha da möhkəmlənməsinə xidmət etdiyini bildirib. Milli Məclis Mədəniyyət Komitəsinin sədr müavini Günay Əfəndiyeva isə Türk dünyasının ədəbi zənginliyindən danışıb, festivalın türk tarixi və mədəniyyətinin təbliğinə xidmət etdiyini diqqətə çatdırıb.

Beynəlxalq Türk Akademiyasının təmsilçisi Aynur Mayemerova, millət vəkili Elçin Mirzəbəyli çıxış edərək festivalın böyük söz bayramı olduğunu, türk xalqları arasında ədəbi-mədəni əlaqələri gücləndirəcəyini və gənc nəslin Türk dünyasının böyük şəxsiyyətlərini tanımasına yardım edəcəyini vurğulayıblar. Festivalın açılış günü Qırğızıstan ədəbiyyatına həsr edilib. Sərgi ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Azərbaycanın Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Yazıçılar Birliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti, Beynəlxalq Türk Akademiyası, TÜRKSOY və digər qurumların təşkilati dəstəyi ilə keçirilən festival mayın 31-dək davam edəcək. Bir həftəlik kitab bayramında şeir saatları, müzakirələr, kitab təqdimatları, konfranslar, konsert proqramları ilə yanaşı, görkəmli ədiblərin yubileylərinə həsr olunan məclislər də təşkil olunacaq. Eyni zamanda, müxtəlif nəşriyyatların yeni nəşrləri təqdim ediləcək.

***Ə.ƏLİYEV***
***XQ***

# Ailə cəmiyyətin özəyi, milli kimliyin qoruyucusudur

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə 2025-ci ilin Türkiyədə "Ailə İli" elan edilməsi çərçivəsində Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı ilə İstanbulda Beynəlxalq Ailə Forumu keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova məclisdə "Ailə yönümlü siyasətlərin tətbiqi: Milli və beynəlxalq səylər" mövzusunda nazirlər sessiyasında çıxış edib.**




Komitə sədri bildirib ki, problemlərin və risklərin qloballaşdığı, həll yollarının isə parçalandığı müasir dünyada ailə institutunun zəifləməsi, ailədaxili münasibətlərdə mənəvi boşluqlar və sosial təcrid riski bütün ölkələr üçün ortaq problemə çevrilib. Bu çağırışlara isə yalnız ortaq dəyərlərin müdafiəsi, birgə təşəbbüslər və beynəlxalq əməkdaşlıq sayəsində cavab tapmaq olar. Azərbaycan dövləti ailəni cəmiyyətin əsası, milli kimliyin qoruyucusu və strateji inkişafın dayağı kimi qiymətləndirir.

Hazırda "Ailə Konsepsiyası"nın üzərində iş aparıldığını diqqətə çatdıran Bahar Muradova daha sonra qeyd edib ki, yalnız ailə yönümlü siyasətlər vasitəsilə qloballaşmanın təzyiqləri qarşısında davam gətirə və cəmiyyətlərimizin müqavimət hissini möhkəmləndirə bilərik. İndi cəmiyyətin rifahı, qadınların və uşaqların reabilitasiyası, ailələrin münaqişədən sonrakı dövrdə müdafiəsi və sosial inteqrasiyası prioritet sahələrimizdəndir. Bu məqsədə çatmaq üçün Türk Dövlətləri Təşkilatı çərçivəsində, İslam ölkələri, eləcə də digər regional və beynəlxalq formatlarda qurulmaqda olan əməkdaşlıq modellərimiz ailə dəyərlərinin qorunması üçün nümunəvi bir istiqamət formalaşdırır: "Bizim hər birimiz bu dəyərləri bir-birimizə tanıtmalı və müdafiə etməliyik. Azərbaycan bu baxımdan Asiya, Avropa və İslam dünyası arasında körpü rolunu oynayaraq müxtəlif sosial yanaşmalar arasında balansı qorumağa çalışır".

Forum çərçivəsində imzalanacaq bəyanatın müddəalarına toxunan Bahar Muradova bildirib ki, ailə institutunun möhkəmləndirilməsi üçün milli və beynəlxalq səviyyədə effektiv siyasətlər hazırlanmalı, demoqrafik və cins balansını qorumaq üçün doğum stimullaşdırılmalı, məsuliyyətli valideynlik və nəsillərarası varislik kimi məsələlər diqqət mərkəzində saxlanılmalıdır. Eyni zamanda, ailənin təməl dəyərlərinə zidd olan zərərli meyillərin və məqsədli layihələrin qarşısı qətiyyətlə alınmalıdır.

Bahar Muradova çıxışının sonunda Azərbaycanın bu sahədə bütün tərəfdaş ölkələrlə açıq və səmimi əməkdaşlığa hazır olduğunu vurğulayıb.

27 ölkənin dövlət rəsmilərinin qatıldığı tədbir çərçivəsində nazirlərin ikitərəfli görüşləri, sərgilər, yarmarkalar və təqdimatlar təşkil olunub.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# İslamabadda Azərbaycanın Müstəqillik Günü mərasimi



**İslamabadda Azərbaycanın qarşıdan gələn "Müstəqillik Günü" münasibətilə ziyafət təşkil edilib. Tədbirdə Pakistanın Federal Neft Naziri Əli Perviz Malik də iştirak edib.**

Azərbaycanın Pakistandakı səfirliyi tərəfindən təşkil olunan qəbulda Pakistanın Sind əyalətinin qubernatoru Kamran Tessori və Xeyber-Paxtunxva əyalətinin qubernatoru Faysal Kərim Kundi, iqlim dəyişikliyi üzrə keçmiş nazir, senator Şerri Rəhman və digər nüfuzlu şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik dünyəvi respublika olduğunu vurğulayıb.

O, Azərbaycanın müstəqilliyinin bərpasından sonra Pakistanın rolunu yüksək qiymətləndirib və qeyd edib ki, Pakistan 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub.

***XQ***

# Kəşfiyyatçı Fuadın son döyüşü

**Fuad Əliyev 2001-ci il mayın 10-da Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olub. 2007–2018-ci illərdə M.Ələkbərov adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb. Fuad digər həmyaşıdları kimi 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək üçün dəstəyə yazılıb və keçilən təlimləri bacarıqla başa vurub. Çətin məşqlər onu yorsa da bərkidib. Fuad kəşfiyyatçı peşəsinin sirlərini mənimsəyib.**



Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olan Fuad Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə qatılıb. Kəşfiyyatçının ilk döyüş yolu Murovdağdan başlayıb. Hündür dağ silsiləsində sərt hava şəraitində irəliləmək, verilən tapşırığa uyğun kəşfiyyatçı vəzifəsinin öhdəsindən gəlmək nə qədər çətin olsa da, Fuad gənc olmasına baxmayaraq, işinin öhdəsindən bacarıqla gəlib. O, dəfələrlə düşmənin arxasına keçib, çox vacib məlumatlarla geri dönüb əks-tərəfin yerləsdiyi ərazi, hərbi qüvvəsi haqqında bilgilər gətirib. Onun arzusu heç vaxt üzünü görmədiyi, xəyalında canlandırdığı, izini-cığırını şəkillərdən tanıdığı Cıdır düzünün, Şuşanın azadlığını görmək olub. Suqovuşanın, Hadrutun, Füzulinin, Zəngilanın işğaldan azad edilməsində fərqlənib, xüsusi təyinatlı olaraq, ağır kəşfiyyatçı peşəsinin öhdəsindən bacarıqla gəlib. Gətirdiyi məlumatlar əsasında yoldaşları düşmənə gözləmədiyi istiqamətdən hücum ediblər və döyüş uğurla başa çatıb. Kəlbəcərdən evə zəng edəndə oranın dağlarının Əsrik Cırdaxanın dağlarına bənzədiyini deyib. Onun son günləri Şuşanın azadlığı uğrunda gedən vuruşmada keçib. Ailəsi ilə əlaqə saxlayıb, "artıq Şuşa bizimdir. Qələbə bizimdir. Biz qalib gəldik."– deyə sevincini bölüşüb. Təəssüf ki, Fuad Əliyev növbəti məsul tapşırığı yerinə yetirərkən noyabrın 8-də Şuşa şəhəri uğrunda gedən son və qəti qələbə ilə bitən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şuşanı görmək arzusu gerçəkləşən Fuadın nəşi noyabrın 12-də doğma torpağına gətirilib. Hərbi qulluqçuların, rayon ictimaiyyətinin iştirak etdiyi böyük izdihamla Tovuz rayonunun Aşağı Öysüzlü kəndində dəfn olunub. Ona təqdim edilən Azərbaycan bayrağını bağrına basan atası Ramin Əliyev kövrək və boğuq səslə "Vətən sağ olsun!"– deyib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı Fuad Əliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ötən həftə, mayın 10-da Tovuz rayon ictimaiyyətinin nümayəndələri, "Ulus şəhid ailələrinə qayğı" İctimai Birliyi Turan ailəsi, eyni zamanda, şəhid ailələrinin üzvləri, doğmaları onun qəbrini ziyarət etdilər. İctimai Birliyin rəhbəri bu dərdi qürurlu dərd adlandırdı. Digər şəhid ailələrinin üzvləri də igidimizə Allahdan rəhmət dilədilər, ailəyə başsağlığı verdilər. Fuadın nənəsi Nailənin fəryadı, anası Rəsmiyyənin yanıqlı bayatıları qəlbləri sızlatdı. "Dur, bala, dur ayağa, evimizə gedək. Ad gününü orada qeyd edək. Mənim özü körpə, gördüyü işlər böyük olan, ordenli, medallı balam, qardaşların Dilavər, Əfsun, Üzeyir sənsiz darıxıblar. Sən mənim başımı ölümünlə uca etdin. Qəlbim parçalanır, amma o biri şəhid analarına baxıb özümü sakitləşdirirəm. Vətən yolunda şəhid olan tək mənim balam deyil ki. Kaş ailə quraydın, bir yadigarın qalaydı, onunla təskinlik tapardım. "– deyən anaya mərasimə toplaşan dərddaşları– şəhid anaları təskinlik verdilər.

Anım toplantısında şəhidin ruhuna dualar oxundu, ölkəmizin bir də müharibə görməməsi, qapıları şəhid xəbərləri döyməməsi, insanların dərddən, ağrı-acıdan uzaq olmaları arzulandı. Fuad 19 yaşında qəhrəman oldu. Vətəninin azadlığı yolunda canından keçdi. Şəhidlərin hər biri qəhrəmanlıq, rəşadət, mərdlik nümunəsidir. Digər şəhidlərimiz kimi, Fuadın da ruhu şad, məkanı cənnət olsun.

Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan Fuad Əliyevin xatirəsinə 2021-ci ildə kənddə bulaq inşa edilmişdir. Bulağın açılışı günü ehsan verilmiş, toplantı keçirilmişdir. Bildirilmişdir ki, şəhidlər Vətənə sevgi sözünü dilində deyib, qəlbinə yazan və əməlində onu göstərənlərdir. Ruhları şad olsun!

# Tuğ əməliyyatının qurbanı

**"Vətən müharibəsində canım-qanım Vətənə fəda olsun"– deyib cəbhə dostları ilə düşmən üzərinə şığıyan, yağıdan qisasımızı alan 19 yaşlı Cavid Natiq oğlu Hüseynov da şəhidlik mərtəbəsinə yüksəlib. O, 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılmışdı. 2020-ci il oktyabrın ilk günlərində xidmətini başa vurub evə, ailəsinin yanına qayıdacaqdı.**



O günü doğmaları, dostları, idmançı yoldaşları böyük həsrətlə gözləyirdilər. Əzizlərinin gözləri yolda, qulaqları səsdə idi. Hər an qapılarını döyəcək "Cavid əsgərlikdən qayıtdı" müjdəsini gözləyirdilər. Cavid gözlənilən vaxtdan bir az gec qayıtdı... Amma canını qurban etdiyi Vətənimizin şəhidi kimi, Azərbaycan bayrağına bükülmüş tabutda...

Cavid Natiq oğlu Hüseynov 2001-ci il aprelin 3-də Tovuz şəhərində anadan olub. 2007–2016-cı illərdə Tovuz şəhərində N.Tusi adına Təbiət və Texniki təmayüllü məktəb-liseydə, 2016–2018-ci illərdə M.Ələkbərov adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb.

Ermənistanın Tovuz cəbhəsində törətdiyi təxribatlar əsgərlikdə olan Cavidi çox narahat edirdi, silaha sarılıb düşmənə qan udduran igidlərimizin sırasında olmağa can atırdı. Ordumuzun Tovuz döyüşlərində düşmənə çəkdiyi göz dağı azacıq da olsa Cavidə təsəlli oldu. Amma fikri-zikri düşməndən qisas almaq, torpaqlarımızın işğaldan azad edilməsində iştirak etmək idi. Cavid və onun kimi minlərlə igid oğullarımızın gözlədiyi gün nəhayət ki, yetişdi. Sentyabrın 27-də düşmənin Azərbaycanın yaşayış məntəqlərini ağır artilleriya silahlarından atəşə tutması, dinc insanlarımızı qətlə yetirməsi müharibəni gerçəkləşdirdi. Müzəffər Azərbaycan Ordusu torpaqlarımızın düşmən tapdağından azad edilməsi istiqamətində hərbi əməliyyatlara başladı. Şanlı ordumuzun cəsur əsgərlərindən biri kimi C.Hüseynov da ön cəbhədə əlində silah düşmənə göz açmağa aman vermədi.

Onun döyüş yolu Füzuli, Cəbrayıl və Xocavənddən keçdi. Oktyabrın 31-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə fədakarlıq göstərən Cavid düşmənin atdığı top mərmisindən şəhid oldu. Düşmən qəhrəmanımızın Vətən, yurd sevgisi, təəssübü ilə döyünən, düşmənə qəzəb və nifrət, qisas hissilə alışan ürəyini nişan aldı. Amma düşmən Cavidin ürəyini susdura bilmədi. O, "canım Vətənimə fəda olsun"– deyib, qanı tökülən ana torpağı əbədi olaraq qucaqladı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Cavid Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

C.Hüseynov tovuzluların fəxridir. O, "Tovuz" taekvondo klubunda tanınmış idman ustası Ümid Axundovun tələbəsi olub. Cavid tabutunu süsləyən üçrəngli bayrağımızı dəfələrlə yerli və beynəlxalq əhəmiyyətli taekvondo yarışlarında dalğalandırıb, himnimizi dinləyib. "Tovuz" taekvondo klubunun rəhbəri tələbəsindən danışdı:

– Cavid Vətənimizi, Azərbaycan Bayrağını, himnimizi çox sevirdi, yarışlarda bayrağımızı az dalğalandırmamışdı. Onun o qədər gözəl ürəyi vardı, o qədər yaxşı gənc idi ki, sözlə deməkdə çətinlik çəkirəm. Gülərüz, səmimi, mehriban, iki metrə yaxın boyu olan bir oğlan idi. On ilə yaxın idi ki, taekvondo ilə məşğul olurdu, ümidlərimizi doğruldan tələbələrimdən biri kimi bir çox respublika əhəmiyyətli və beynəlxalq yarışların qalibi olmuşdu. Onun gələcəyinə böyük ümidlər bəsləyirdim. Cavid 2018-ci ildə gənclər arasında respublika çempionu oldu. 2020-ci il oktyabrın əvvəlində tərxis olunmalı idi. Müharibə başladı və o, orduda xidmətini cəbhədə davam etdirdi. Onun qardaşı Şahin də mənim tələbəm olub. 2019-cu ildə böyüklər arasında respublika üçüncüsü oldu. Cavidin digər qardaşı, tələbəm Muxtar da ön cəbhədə düşmənə qarşı döyüşüb. Cavidin əmisi oğlu Amil də 2018-ci ildə respublika 3-cüsü olub. Cavidlə Amil həm də yaxın dost idilər. O, səmimiliyi, mehribanlığı, gülərüzlüyü ilə hər kəsin qəlbində özünə əbədi heykəl qoyub.



Noyabrın 3-də Cavidin 3 mərasimi oldu. Döyüşçü dostları ilə zəngləşdik, onlar bizə Cavidin qəhrəmanlığından, cəsurluğundan danışdılar, onun qisasını düşməndən alacaqlarlarına söz verdilər, aldılar da. Cavid Tovuz qəbiristanlığında dəfn olunub. Gənc yaşda həyatını itirməsi bizi yandırsa da, ən böyük təsəllimiz onun şəhidlik zirvəsinə ucalmasıdır. Biz Cavidlə qürur duyuruq, ailəsi ilə əlaqəmiz var. Azərbaycan Taekvondo Federasiyası da ailəyə qayğı göstərir.

"Qala" taekvondo klubunun rəhbəri Ramil Həsənov, "Tovuz" taekvondo klubunun müəllimi Elşad Zeynalov Cavidin həlak olmasından üzüldüyünü bildirsələr də, onun uca şəhid adı ilə fəxr etdiklərini dedilər: "Bu gün Cavidlə bütün tovuzlular, bütün taekvondo ictimaiyyəti fəxr edir. Çünki o, Azərbaycan torpaqlarının düşmən işğalından azad edilməsi uğrunda canını fəda edib".

Şəhidlik məqamına ucalan Cavidin ruhu şaddır, çünki, qisası qiyamətə qalmadı.

**2001-ci ilin noyabr ayının 8-i idi. Çiskinli, dumanlı bir payız günündə Tovuz rayonunun Düz Qırıqlı kəndində Bədirovların evindən şən, gülüş səsləri ətrafa yayılırdı. Bu şadyanalıq səbəbsiz deyildi. Ailənin 2 qız övladına qardaş doğulmuşdu. Yaxınları Nurəddinin ailəsini təbrikə gəlmişdi... Nəcməddin ayla, illə deyil, günlə böyüdü. 2007-ci ildə Nurəddin Bədirov oğlunun əlindən tutub onu kənd məktəbinin 1-ci sinfinə apardı. Orta təhsilini doğulduğu kənddə alan Nəcməddin 2018-ci ildə məktəbi bitirdi.**

# Tərifnaməli əsgərin şərəfli döyüş yolu



O, 2019-cu ilin yanvar ayından Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Andiçmə mərasimindən sonra Beyləqandakı N saylı hərbi hissədə xidmətinə davam edib. Müharibə başlayan gün əsgər yoldaşları ilə birgə cəbhəyə göndərilib. Ailəsi ilə əlaqə saxlayanda hərbi xidmət dövründə nümunəvi əsgər olduğuna görə üç dəfə tərifnamə aldığını, qayıdanda hamısını özü ilə gətirəcəyini söyləyib.

…Nəcməddingil ailədə üç uşaq – iki bacı, bir qardaş olublar. Evin sonbeşiyi olub Nəcməddin. O, orta məktəbi bitirəndən sonra ali təhsil dalınca getməyib. Həm evin sonbeşiyi, həm də tək oğul olduğundan anasına çox bağlı olub. Həmişə deyirmiş ki, böyüyüb əsgərliyə gedəcəyəm. Qayıdandan sonra anamı işləməyə qoymayacağam, özüm işləyib hamınıza baxacağam…

– Sentyabrın 28-də Nəcməddin zəng vurub dedi ki, cəbhədəyəm, amma, narahat olmayın. Dedi, "ana, Allaha çoxlu-çoxlu dua elə". İki gün sonra yenidən zəng vurdu. Hamımızla danışdı. Mənə dedi ki, "sən danış, qoy səsinə doyunca qulaq asım, həyatda ən çox sənə görə yaşayıram, heç nədən qorxma, oğlun qəhrəman olacaq, qələbə ilə dönəcək". Mənim oğlum ağıllı uşaq olub. Balam fəxr ediləsi oğul idi. Elə dediyi kimi də oldu. Torpaq uğrunda canını verdi balam, qəhrəmanlıq göstərdi, ölümündən sonra oğluma medal da verdilər. Balamın ölümünə yanıb-yaxılsam da, onun adı ilə fəxr edirəm.

Nəcməddin ata-anasını bacısı Aysələ əmanət edib. Zəng edəndə ona deyib: "Mənə axıracan qulaq as, bizi müharibəyə göndərdilər, indi cəbhədəyəm. Səngərdən sənə zəng edirəm. Həyatda hər şey istədiyin kimi olmur. Birdən sağ qayıtmasam, oğlun olsa, mənim adımı qoyarsan, onunla fəxr eləyərsən. Qorxmayın, hər şey yaxşı olacaq, amma ürəyimə damıb ki, mən şəhid olacağam. Başınızı dik tutar, mənimlə qürur duyarsınız. Aysel, ata-anamı sənə, səni də Allaha əmanət edirəm".

Sentyabrın 30-dan sonra Nəcməddinlə əlaqə saxlamaq mümkün olmayıb. Ailə üzvləri ondan heç cür xəbər tuta bilməyiblər. Gözlər yolda, qulaqlar səsdə qalıb. İntizar uzun çəkib. Müharibənin qələbə sorağı gəlib, amma Nəcməddindən xəbər gəlməyib. Bir müddət sonra ailəyə övladlarının itkin düşməsi barədə xəbər verilib. Noyabrın 23-də isə hərbi komissarlıqdan Nəcməddinin oktyabırın 10-da Füzuli rayonu, Qaraxanbəyli kəndi uğrunda gedən şiddətli döyüşlərdə şəhid olduğunun təsdiqləndiyi bildirilib. Ertəsi gün nəşi doğulduğu kəndə gətirilib və Düz Qırıqlı kəndindəki məzarlıqda torpağa tapşırılıb.

19 yaşlı bu gənc Bədirovlar ailəsinin ilk şəhidi olmayıb. Şəhidin atası Nurəddin Bədirov danışır ki, Nəcməddinin əmisi Polad Bədirov da I Qarabağ müharibəsində könüllü cəbhəyə yollanıb, Füzuli rayonunun Şükürbəyli kəndində şəhid olub... Taleyin qismətinə bax ki, Nəcməddin döyüşə 27 il əvvəl əmisinin şəhid olduğu kənddən başlayıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Nəcməddin Bədirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

# Komandirini xilas edən şəhid

**Xətai Xaliq oğlu Həsənov 2001-ci il iyunun 29-da Tovuz rayonunun Qovlar şəhərində anadan olub. Ailənin 3 qızdan sonra tək oğlan övladı doğulanda qurbanlar kəsilib, nəzir-niyaz paylanıb, qohum-əqrəba Həsənovların evinə gözaydınlığına gəlib, uşağa xeyir-dua veriblər. Adını Xətai qoyub Şah İsmayıl səviyyəsinə, yüksəkliyinə çatmasını arzulayıblar.**



Xətai 2007-ci ildə Sovet Kazımov adına Qovlar şəhər tam orta məktəbin 1-ci sinfinə gedib. Sinifdə fərqlənən uşaqlardan olub, haqqın tərəfində durub, zəifi, gücsüzü müdafiə edib. O, 2018-ci ildə 11-ci sinfi bitirdikdən sonra ailənin istəyilə Bakı Biznes və Kooperasiya Kollecinə daxil olub. Kurs yoldaşları arasında köçkünlərin də olması, onların üzünü görmədikləri rayonları, kəndləri barədə valideynlərindən eşitdikləri, sevərək açdıqları nisgilli söhbətləri onu çox düşündürüb.

Xətai 1-ci kursu başa vurduqdan sonra təhsilinə davam etməməyi qərara alıb. Kolleci bitirmədən hərbi komissarlığa müraciət edib və könüllü olaraq həqiqi hərbi xidmətə gedib. Çünki o, gözünü açandan qonşu Ermənistan tərəfdən ara-sıra rayona açılan atəş altında böyümüşdü. Mülki insanların, mal-qaranın xəsarət alması onun kiçik qəlbində erməniyə böyük nifrət oyatmışdı. Böyümək, hərbçi olmaq, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda savaşmaq arzulayırdı.

Xətai 2019-cu ildə Azərbaycan Ordusunun əsgəri idi. Cəmi 1 il sonra, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması naminə Vətən müharibəsi başladı.

Əsgər Xətai Həsənov da digər yoldaşları kimi Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərə qoşuldu. Bu savaşda o, düşmənə qarşı mərdliklə vuruşdu. Onun döyüş yolu Ağdərə, Cəbrayıl, Talış kəndindən keçdi. Hər kənd, hər rayon azad edildikcə Xətainin qəlbində qələbəyə daha böyük ümid oyanırdı. Yanında döyüş yoldaşları yaralandıqca, şəhid olduqca düşmənə nifrəti birə-beş artır, daha cəsarət və hünərlə döyüşür, hər şəhid yoldaşının qisasını almaq üçün gücünü daha çox səfərbər edirdi. Şəhidlik zirvəsinə ucalmazdan öncə, ailəsi ilə sonuncu dəfə oktyabrın 30-da, yəni ölümündən bir gün öncə danışan Xətai Həsənov anası Qalibə xanıma "qoy, müharibə bitsin, biz qayıdaq. Qazandığımız qələbədən danışanda mənimlə fəxr edəcəksiniz, ana" –deyib.

Xətai Həsənovun anası deyir:

– Oğlumun uşaqlıqdan hərbiyə həvəsi vardı. Həmişə bizə hərbi formalar aldırar, geyinər, həyətdə o baş-bu başa hərbçi kimi addımlayar, bizə hərbi salam verərdi . Lakin evin tək oğul övladı olduğundan biz onun hərbçi olmağına razı deyildik. Deyirdim ki, hərbçinin daimi evi olmaz, bala. Vətənin hər bucağı onun evidir. Amma biz sənsiz, ayrı yaşamaq istəmirik, oğul. Xətai isə "Vətən torpağının hər qarışı əzizdir, evimizdir, ana",– deyə bizə təskinlik verirdi. Onun o kollecə getməyi də bizim istəyimizlə olmuşdu, sözümüzdən çıxa bilməyib orada təhsil almağa razılaşmışdı. Ürəyinin istəyinə qarşı dura bilmədi Xətai. Təhsilini yarımçıq qoyub hərbi xidmətə getdi.

Xətai Həsənov Ağdam rayonunun Qaraqoyunlu kəndində gedən döyüşlərdə öz komandirini xilas edən zaman qəhrəmancasına şəhid olub. Bu gün onunla, vaxtilə özünün dediyi kimi, nəinki ailəsi, bütün Azərbaycan xalqı fəxr edir. Xətai Həsənov Tovuz rayonunun Qovlar qəsəbəsinin ilk Vətən müharibəsi şəhididir. O, 2020-ci il oktyabrın 31-də Tovuz rayonunun Qovlar şəhərində dəfn olunub.

**Ruhun şad olsun, Vətən oğlu! Uğrunda can verdiyin Vətən səni unutmur.**

*Səhifəni hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

Cavad Heyət – 100

# Milli ruhumuzun "Varlıq" tərcümanı

**Təbrizdə doğulub, İstanbulda və Parisdə ali tibb təhsili almış, Tehranda parlamış, Bakıda haqqa qovuşmuş məşhur cərrah və türkoloq Cavad Heyət bütün varlığı ilə ziyalı bir şəxsiyyət idi. Özünün 100, yaradıcısı olduğu "Varlıq" jurnalının 45 yaşı qeyd edilən böyük insan daim qəlbində və əməllərində böyük Azərbaycan sevgisini yaşadıb.**

Bir neçə dəfə Cavad Heyəti qəbul edərək səmimi söhbətlər etmiş ulu öndər Heydər Əliyev onun şəxsiyyətini, milli-mədəni sahədəki fəaliyyətini yüksək qiymətləndirirdi. Cavad Heyət isə Heydər Əliyevin onu özünə dost bilməsini yüksək dəyərləndirərək deyirdi ki, mən bu dahi insanın fikirlərindən, sözlərindən, prinsiplərindən həmişə bəhrələnmişəm. O, həqiqətən öndər, dahi şəxsiyyət idi.

Prezident İlham Əliyev də Cavad Heyətə diqqət və qayğı göstərirdi. Onun fəaliyyətinə yüksək dəyər verən dövlətimizin başçısı ölkəmizə tez-tez səfərə gələn bu fədakar alimimizə Bakının mərkəzində, Nizami küçəsində ev hədiyyə edib. Ömrünün son 9 ilində hər Bakıya gələndə bu mənzildə könül xoşluğu ilə qalan Cavad Heyətin qapısı bütün cavadsevərlərin üzünə açıq olub. Şairlər, jurnalistlər, həkimlər, ürəyi "dəcəllik" edən adi vətəndaşlar ard-arda bura üz tutur, gur işıq selindən hərə özünə dəyərli bir zərrə götürürdü.

Güney Azərbaycanda ona bir ağsaqqal kimi Dədə Qorqud deyirdilər. Türkologiya, fəlsəfə, ilahiyyat və digər sahələrdəki tədqiqatları ilə dünyada diqqət mərkəzində idi. İranda uğurla apardığı ilk açıq ürək əməliyyatı sayəsində milyonların ürəyinə yol tapmışdı. Azərbaycana sıx bağlı idi. İlk dəfə 1982-ci ildə görkəmli tibb professoru Nurəddin Rzayevin dəvəti ilə Bakıya gəlmişdi. Bəxtiyar Vahabzadə, Xudu Məmmədov və başqa böyük simalarla dostlaşmışdı. Ölkəmiz müstəqillik qazandıqdan sonra buraya daha tez-tez səfər edən Cavad Heyət tanınmış elm və mədəniyyət xadimlərimizin, yaradıcı ziyalılarımızın, sanki, "üzük qaşı" olmuşdu. Onun böyük milli təəssübkeşliyini göstərən yüzlərlə faktdan biri kimi,1993-cü ildə Kəlbəcərin işğalından sonra Türkiyə Prezidenti Süleyman Dəmirələ məktub yazması, dünyanı və qardaş ölkələri qətiyyətlə Azərbaycana arxa durmağa çağırması yaddaşların işıqlı guşəsində yer alır. Cavad Heyət Azərbaycanın bir çox universitetlərin və elmi qurumların fəxri doktoru seçilmişdi, yuvarlaq ildönümləri ölkəmizdə sevgilərlə qutlanmışdı. Əsl ürək adamı olan alim Azərbaycanla bərabər, Amerika, Fransa, Türkiyə və bir çox Avropa universitetlərində cərrahiyyə ilə bağlı mühazirələr oxumaq üçün tez-tez dəvətlər alırdı.

İranda bir sıra iri xəstəxanaları quran, böyrək dəyişdirilməsi, açıq ürək əməliyyatları və sair möcüzə kimi görünən bir çox başqa təbabət hünərlərini ilk dəfə göstərən Cavad Heyət olub. Onun dünya cərrahiyyəsindəki xidmətlərini zərrəcə azaltmadan, türkologiya sahəsində fəaliyyətini xüsusi vurğulamaqla qürur duyuruq. Əvvəlcə dostu, professor Həmid Nitqi ilə birlikdə İranda elmi türkologiyanın əsasını qoyub, sonrakı çoxşaxəli çalışmalarında Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və islamşünaslığa dair geniş tədqiqatlar aparıb. Mədəniyyətin müxtəlif problemlərinin öyrənilməsinə münasibətdə tarixi həqiqətlərdən çıxış edərək obyektivlik göstərən alimin ədəbi simpoziumlarda və türkoloji konfranslarda çıxışları həmişə təqdir olunub. 2-si fars, 5-i isə türk dilində nəşr edilmiş 7 cildlik türkologiya kitabı, bu sahədə 300 (tibb sahəsində isə 100) məqaləsi alimin bilik və düşüncə dairəsi haqqında çox şey deyir.

Cavad Heyətin "Varlıq" dərgisi milli varlığımızın o tayda əsl kimlik sənədi – pasportu idi. Böyük ziyalı bütün ömrü boyu jurnalı şəxsi vəsaiti hesabına nəşr etdirib. Bu nəşrdəki yazıların beş-



də-dördü Azərbaycan dilində, az bir qismi isə fars dilindədir. Dərin elmi-tarixi və mədəni mövzulara işıq tutan "Varlığ"a Şəhriyar, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Şahmar Əkbərzadə və bir çox digər ünlü şairlər şeirlər həsr edib. Cənublu soydaşımız Şikar Məstəli bu jurnalı "Qoruyaq "Varlığ"ı canımız kimi, Anamız söyləyən bayatıdır o" – deyə qiymətləndirib. Bu dərginin çevrəsində böyük bir aydınlar nəsli yetişib. "Varlıq"dan daha öncə də Cavad Heyət heç nədən çəkinmədən bu yöndə cəsarətli addımlar atıb. O, fars dilində çap etdirdiyi "Türk dilinin tarixi və ləhcələri" əsərini Pəhləvi rejimi zamanı İran dilçilik elminin və hakim ideologiyanın Azərbaycan dilinin özünəməxsus müstəqil və zəngin bir dil olmasını inkar etməsinə cavab olaraq yazıb.

Cavad Heyət Azərbaycan Yazıçılar Birliyinin M.F.Axundov adına mükafatına və "Dədə Qorqud" Assosiasiyasının "Məmməd Araz" mükafatına layiq görülüb. Unudulmaz Xalq şairimiz Bəxtiyar Vahabzadə bir vaxt onun xidmətlərini belə dəyərləndirib:

*Həkim nüsxələri yazdın həmişə,*
*Xəstə şəfa tapıb sağaldı... fəqət,*
*Ədib qələmiylə yazdığın nüsxə*
*Bir xalqın dərdinə şəfadır, əlbət!*

***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni kitablar

# Rəsul Rza şeirləri seçmə seriyada

**"Qanun" Nəşrlər Evində Xalq şairi Rəsul Rzanın yeni çapdan çıxmış "Azərbaycan poeziyası. Seçmə şeirlər" seriyasından kitabının təqdimatı keçirilib. Nəşriyyatın Azərbaycan ədəbiyyatı redaksiyası tərəfindən işıq üzü görən kitab şairin 115 illik yubileyinə həsr olunub.**

Tədbirdə Xalq şairi Nigar Rəfibəylinin eyni seriyadan bir qədər öncə işıq üzü görmüş kitabı da oxuculara təqdim edildi. Mərasimdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli dedi ki, XX əsrdə sərbəst şeir mərhələsinin başlanması Azərbaycan poeziyasında gedən şeirdaxili sərbəstləşmə proseslərinin məntiqi nəticəsi idi. Bu şeir formasının ədəbiyyatımızda xüsusi inkişaf mərhələsinə çatmasında isə məhz Rəsul Rzanın xidmətləri böyük olub:

– Rəsul Rzanın sərbəst şeirləri Azərbaycan ədəbiyyatına geniş fikir və düşüncə sərbəstliyi gətirmiş, lirikanın poetik əksinin bəzi formal tələblərindən xilas olmasına imkan yaratmışdır. Onun şeirlərində bir qayda olaraq sərbəst şəkildə olsa da, qafiyə iştirak edir və artıq sözə yol verilmir. Məhəbbət mövzusunda yazılmış şeirləri qiymətləndirilməklə yanaşı, Rəsul Rza poeziyasında ictimai fikrin, vətəndaşlıq mövqeyinin aparıcılıq təşkil etdiyi xüsusi qeyd edilməlidir. Rəsul Rzanın adı çəkiləndə, ilk növbədə, Azərbaycan ədəbiyyatının ciddi vətəndaş sözü yada düşür. Sovet dövrünün mövcud çətinliklərinə baxmayaraq, Rəsul Rza ədəbiyyatda Azərbaycanın sözünü demək vəzifəsini yerinə yetirməyi bacarıb.

Kitabın tərtibçi və redaktoru, yazıçı Şərif Ağayar bildirdi ki, Rəsul Rza sadəcə sərbəst şeir yazmırdı, şeirdə fərqli duyum və dünyagörüşünü ifadə edirdi. Misra və bəndlərin məna tutumunu gücləndirmək onun yaradıcılığına xas olan əsas keyfiyyətlərdir.

– "Qanun" nəşriyyatı "Azərbaycan poeziyası. Seçmə şeirlər" seriyasından Füzuli, Xətai, Vaqif, Vidadi, Məhəmməd Hadi, Əhməd Cavad, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Cabir Novruz, Nəbi Xəzri, Məmməd Aslan, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli, Zəlimxan




Yaqub kimi görkəmli Azərbaycan şairlərinin kitablarını çap edib. Növbəti mərhələdə Məmməd Arazın və Aşıq Ələsgərin kitablarının nəşri nəzərdə tutulur.

Kitabın "Ön söz" müəllifi, tənqidçi, filologiya elmləri doktoru Cavanşir Yusifli isə Rəsul Rzanı modern Azərbaycan şeirinin öncüllərindən biri kimi xarakterizə edərək dedi ki, şair dünyəvi formaya yerli məzmun verməsi ilə milli şeirimizi dünya poeziyasına qovuşdurmağa çalışır, onun üfüqlərini genişləndirirdi.

Rəsul Rzanın və Nigar Rəfibəylinin övladı – AYB-nin sədri, Xalq yazıçısı Anar Bakıda başlanmış 4-cü Beynəlxalq Ədəbiyyat və Kitab Festivalı ərəfəsində bu əsərlərin çapına və tədbirin təşkilatçılığına görə "Qanun" nəşriyyatına təşəkkürünü bildirdi. O, təqdimat iştirakçılarına valideynləri ilə bağlı xatirələrini bölüşdü.

Digər çıxış edənlər də təqdim olunan kitabların məziyyətlərindən danışdılar. Sonra Xalq şairlərinin şeirləri səsləndirildi.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Azərbaycan milli mətbuatı – 150

# Naxçıvanın 1 əsrlik mətbu salnaməsi

**Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradan bolşevik işğalından sonra sovet hakimiyyəti yerlərdə öz ideologiya və siyasətini geniş yaymaq üçün mətbu orqanların nəşrinə böyük diqqət göstərmiş, bu istiqamətdə geniş tədbirlər həyata keçirmişdir. Naxçıvan İnqilab Komitəsinin də ilk tədbirlərindən biri öz mətbu orqanını yaratması olmuşdur.**

İlk olaraq Naxçıvanda İnqilab Komitəsinin orqanı olan "Kommunist" qəzeti nəşr edilməyə başlayır. Qəzetin yazılmasına gözəl xətti olan məktəblilər və müəllimlər cəlb edilirdilər. Bu qəzetin 50-60 nüsxə, 2 səhifə həcmində ərəb əlifbası ilə əlyazma şəklində olması haqqında məlumatlar var. Bu mətbu orqanın nəşrində Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, kimya elmləri doktoru, professor Cümşüd Zülfüqarlı və uzun müddət məsul vəzifələrdə çalışmış Nemət Novruzovun böyük xidmətləri olmuşdur. Qəzet hazır olduqdan sonra şəhərin müxtəlif yerlərində divarlardan asılarmış. Qısa müddətdən sonra vərəqələr dövrün tələblərinə cavab vermədiyi üçün nəşri dayandırılır.

"Şərq qapısı" qəzetinin 31 mart 1925-ci il tarixli 100-cü nömrəsində bu haqda belə məlumat verilir: "1921-ci ilin əvvəllərində Ölkə İnqilab Komitəsinin daxili işlər şöbəsi tərəfindən divar qəzetəsinə oxşar əl yazısı ilə "Kommunist" qəzetəsinin nəşrinə şüru edildi. Bu qəzetə həftədə bir dəfə olaraq əlli nüsxə buraxılırdı". Bu xəbərdən aydın olduğu kimi, 1921-ci ildə Naxçıvan İnqilab Komitəsi Bakıdan ərəb və rus şriftləri olan mətbəə avadanlığı və bu avadanlığı işlətmək üçün iki mütəxəssis gətirir.

Görülən ilk tədbirlərdən biri də 1921-ci ildə iki qəzetin nəşrinə başlamaq olur. Bu qəzetlərdən biri İnqilab Komitəsinin və hərbi hissənin orqanı olan, çətinliklər üzündən qısa müddətdə nəşrini dayandıran "Naxrespublika" qəzeti, ikincisi həmin ilin noyabr ayının birindən (bəzi texniki səbəblər üzündən qəzet 9 noyabrda işıq üzü görmüşdür), şənbə günü "Cavanlar həyatı" adı ilə nəşr olunan qəzet idi. "Cavanlar həyatı" qəzetinin nəşrində əsas məqsəd Naxçıvan Vilayət Komsomol Komitəsinin orqanı olaraq, Azərbaycan komsomolunun qarşısında duran əsas məsələləri, partiya və dövlətin qərar və göstərişlərini çap etmək, o dövr ictimai həyatın bütün sahələrindəki yenilikləri xalqa çatdırmaq olmuşdur.

Müxbirlərin və mətbəə avadanlığının çatışmaması, əhalinin savadsızlığı ucbatından tirajı 100-150-dən artıq olmayan qəzetin nəşri tez-tez dayandırılırdı. 1921-ci ilin dekabr ayından qəzet həftədə bir dəfə olmaqla daha geniş həcmdə "Füqəra səsi" ilə əvəz olunur. Qəzetin üz səhifəsində "AK(b)P Naxçıvan Ölkə Komitəsinin, Naxçıvan İctimai Şura Cümhuriyyətinin, Mərkəzi İcraiyyə Komitəsinin və Həmkarlar İttifaqı Şurasının naşiri-əfkarı olan, həftədə bir dəfə çıxan türk qəzetidir" sözləri yazılmışdır.

"Şərq qapısı" qəzetinin 10 illik yubiley nömrəsində qəzetin yaranma tarixi belə təqdim olunur: "1921-ci ilin tam noyabrın 1-dən bu gün 10 yaşını keçirən "Şərq qapısı"nın ilk rüşeymi 3 sütundan ibarət "Cavanlar həyatı" adında kiçik bir qəzetdən ibarət olmuşdur. Bu qəzet bir az sonra–1921-ci ilin son həftələrindən "Füqəra səsi" ilə əvəz edilmişdir. Bu qəzet həftədə bir dəfə çıxmaqla ölkənin iqtisadi və siyasi məsələlərini əhatə edərək günü-gündən öz nüfuzunu artırmaqla və həm də tirajı etibarı ilə böyüməkdə idi. 1922-ci ilin yanvar ayında Azərbaycanda lazımi qədər mətbəə ləvazimatı alındıqdan sonra "Füqəra səsi" öz mövqeyini bu gün 10 sənəlik yubileyini keçirdiyimiz "Şərq qapısı"na vermişdir". Qeyd edək ki, "Füqəra səsi" qəzetinin heç bir nömrəsi arxivlərimizdə qorunmamışdır.



«Şərq qapısı» qəzeti, 8 may 1934-cü il

«Sovet Naxçıvanı» qəzeti, 26 dekabr 1981-ci il
«Şərq qapısı» qəzetinin 60 illiyinə həsr olunmuş xüsusi buraxılış

1922-ci ildə Əhməd Haşımov Xalq Maarif Komissarı vəzifəsini icra edən zaman Azərbaycan hökuməti ilə razılığa gələrək yeni nəşriyyat avadanlığı gətirir. Bundan sonra Ölkə Firqə Komitəsi və Mərkəzi İcraiyyə Komitəsi tərəfindən "Şərq qapısı" adlı qəzetin nəşrinə başlanılsa da, qəzet redaktorunun muxtar respublikanı tərk etməsi və müxbirlərin olmaması, maddi zəiflik və bu kimi səbəblər bu qəzetin bağlanmasına səbəb olur.

Qəzetin mətbəə və avadanlıq məsələsi 1922-ci il dekabr ayının 9-da Naxçıvan Xalq Komissarları Sovetinin iclasında müzakirə olunur və müvafiq qərar qəbul edilir. 1923-cü ildə Naxçıvan hökumətinin Şuralaşması günü münasibətilə Ölkə Firqə Komitəsinin məsul katibi Tahirovun təşəbbüsü ilə yenidən "Şərq qapısı" qəzetinin nəşrinə başlanılır.

Tarixi sənədləri vərəqlədikcə belə nəticəyə gəlmək olar ki, Gənclər İttifaqının orqanı olaraq həyata vəsiqə alan "Cavanlar həyatı"nın qısa müddət ərzində təkmilləşərək daha geniş formatda və məzmunda nəşrini davam etdirməsi siyasi baxımdan daha önəmli olduğundan hakimiyyət "Füqəra səsi"nin davamlılığında məqsədli olmuş və həmin qəzet 1922-ci ilin aprel ayından "Şərq qapısı" adı altında yenidən bərpa olunsa da, 1923-cü ilin ortalarından varlığını bugünədək qoruyub saxlaya bilmişdir.

1925-ci ilin mart ayının 31-də qəzetin 100-cü nömrəsi işıq üzü görür. Qəzetin bu yubiley nömrəsi böyük təntənə ilə qeyd edilir. Yubileylə əlaqədar qəzet 1000 nüsxə ilə buraxılır. Həmin nömrədə dərc olunan baş yazıda deyilir: "Əsrlərdən bəri maarif və mədəniyyətin parlaq ziyasından məhrum olaraq cəngavərlər, cəlladlar pəncəsində inləyən Naxçıvan tarixində bu gün göstərilməmiş bir bayram; Gələcək nəslə şərəfli bir yadigar buraxacaq həman bu yadigar, Şərqin qapısında yaşayan Naxçıvan ölkəsinin türk əməkçiləri tərəfindən mövhumat və cəhalətə qarşı vurulan 100 ədəd maarif qurşunu və 100 nömrəyə varmış olan bir türk qəzetəsidir".

"Şərq qapısı" qəzeti 1930-cu ilədək ərəb, 1930–1940-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunub. Həmin dövrdən indiyədək latın əlifbası ilə nəşr olunur.

Qəzetin ilk redaktoru, Naxçıvan Xalq Maarif Komissarı vəzifəsində işləyən Həmid Mahmudov olmuşdur. Hazırda qəzetə jurnalist Sara Əzimova redaktorluq edir.

Böyük Vətən müharibəsinin meydana çıxardığı xüsusi çətinliklər dövründə "Şərq qapısı" qəzeti cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi regionda hər evin qapısını açmış, döyüş səngərlərinə belə gedib çata bilmişdir.

Böyük Vətən müharibəsindən sonra mətbuatda əvvəlki illərlə müqayisədə dönüş nöqtəsi yaranmışdır. Müharibədən sonrakı quruculuq dövrü mətbuatın inkişafını stimullaşdıran qüvvəyə çevrilmişdir. Həmin dövrdə "Şərq qapısı" qəzeti ədəbi mühitlə yanaşı, xalq təsərrüfatının ayrı-ayrı sahələrindən təsirli yazılar vermişdir. Həmin dövrdə redaksiyanın əsas heyətini fəhlə-kəndli müxbirlər təşkil etsə də, qəzet öz səviyyəsini və operativliyini qoruyub saxlaya bilmişdir.

"Şərq qapısı" qəzetinin həyatında da 1970-ci ildən sonra yeni mərhələ başlanmışdır. Bu dövrdə respublikamızın hər bir bölgəsində olduğu kimi, Naxçıvanda da mətbuatın inkişafına xüsusi qayğı və diqqət yetirilmiş, məhz bu dövrdə mətbuat orqanlarının və işçilərinin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ötən əsrin 70-ci illərinin əvvəllərində Naxçıvanda böyük redaksiya-nəşriyyat kompleksi inşa olunmuş, "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Bu dövrdə qəzet muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında, Naxçıvanın iqtisadi potensialının dirçəlişində və tərənnümündə mühüm rol oynamış, millilik prioritetləri önə çəkilmiş, dil, ədəbiyyat, mədəniyyət və tarixə həsr olunmuş, azərbaycançılıq ideologiyasına xidmət edən yazılar da dərc olunmuşdur.

Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli qərarı ilə qəzetə "Sovet Naxçıvanı" adı verilir. 30 oktyabr 1979-cu ildən isə Azərbaycan KP MK-nın 19 №li büro protokoluna əsasən Mərkəzi Komitənin Azərbaycanda və Özbəkistanda çıxan yerli qəzetlərin yanvar ayından rus dilində dublikatının çıxarılması barədə qərarını əsas tutaraq "Sovet Naxçıvanı" qəzetinin rus dilində 5 min tirajla "Sovetskaya Naxiçevan" başlıqlı dublikatı çıxmağa başlayır. Adının dəyişdirilməsinə baxmayaraq, "Sovet Naxçıvanı" qəzeti böyük ənənəyə malik olan "Şərq qapısı"nın yolunu davam etdirmiş, varislik ənənələrini qoruyub saxlamışdır". 1989-cu ilin oktyabrın 24-dən qəzetin əvvəlki tarixi adı – "Şərq qapısı" özünə qaytarıldı.

1988-ci ildən Azərbaycanda baş qaldıran azadlıq hərəkatı 1990-cı ilin yanvarında özünün ən yüksək, eyni zamanda, qanla əldə olunan azadlıq zirvəsini fəth etdi. Zülmə və əsarətə, haqsızlığa dözüm səbri tükənən xalqın tələbi ilə Naxçıvan MR Ali Soveti 1990-cı il yanvarın 20-də Naxçıvanın SSRİ tərkibindən çıxması haqqında bəyanat verdi. Bəyanat Naxçıvan televiziyası, eləcə də rabitə işçilərinin yaratdığı imkan vasitəsilə radio ilə orta dalğada beş dildə dünya ictimaiyyətinə çatdırıldı. Xaosun yaratdığı imkandan faydalanaraq hadisələri obyektiv xalqa çatdırmaq istəyində olan bir qrup Naxçıvan ziyalısı muxtar respublikanın rəsmi dövlət qəzeti olan "Şərq qapısı"nı müstəqil nəşr etdirmək qərarına gəldilər.

"Birlik və demokratiya uğrunda" şüarını əsas götürən "Şərq qapısı" qəzeti 1990-cı ilin 19 yanvarından 10 min tirajla Naxçıvan Respublikasının qəzeti kimi oxuculara təqdim olundu. Ən maraqlısı isə odur ki, ömrü çox qısa olmasına baxmayaraq, böyük rezonans doğuran ilk müstəqil mətbu orqan 70 il susmağa məcbur edilən xalqın tribunasına, yazmaq yanğısının təşnəsinə çevrilmişdi.

1990-cı ilin iyulunda dahi öndər Heydər Əliyev Moskvadan Naxçıvana qayıdandan sonra muxtar respublika blokadada olmasına baxmayaraq, bütün dünyanın nəzərləri Naxçıvana yönəlmişdi. 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən möhtərəm Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti ətrafında Azərbaycan Respublikasına o zaman rəhbərlik etmiş şəxslərin yaratdıqları sərt informasiya blokadasının yarılmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynamışdır.

1995-ci ilin axırlarında Azərbaycan Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən parlament seçkilərindən sonra muxtar respublika ali qanunverici orqanının yeni tərkibdə fəaliyyətə başlaması durğunluğa, ətalətə son qoymuş, yeni həyat quruculuğu sahəsində geniş imkanlar açmışdır. Bu səbəbdən 1996-cı ilin əvvəlindən qəzetin fəaliyyətində də canlanma yaranmış, onun üzləşdiyi maliyyə problemləri birdəfəlik həllini taparaq həftədə iki dəfə işıq üzü görməyə başlamışdır.

Müstəqillik dövründə "Şərq qapısı" qəzetinin ilk yubileyi 1996-cı ilin dekabr ayında keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qəzetin 75 illik yubileyini unutmamış, ölkə rəhbəri kimi qəzet redaksiyasına təbrik məktubu ünvanlamışdır. Qəzetin 26 noyabr 1996-cı il tarixli sayında dərc olunan təbrik Naxçıvan mətbuat tarixində ölkə başçısı tərəfindən qəzet redaksiyasına ünavanlanan ilk məktub idi. Ölkə başçısının onun həyat və fəaliyyətində mühüm rol oynamış doğma qəzetinə təbrik məktubu göndərməsi qəzetin respublika səviyyəli nüfuzunu artırmış, onun dövlət səviyyəsində diqqətdə olduğunu bir daha təsdiqləmişdir.



«Şərq qapısı» qəzetinin daimi yazarları:
(sağdan) Hacı Dadaşov, Fərəməz Mahmudbəyov, Əli Həsənzadə, Məhəmməd Ənnağıyev, Əlisəttar Qılmanov, Abbasqulu Əliyarov, Dövlətov, Məhəmməd Rasizadə

«Şərq qapısı» qəzetinin mətbəəsi XX əsrin 20-ci illərində

Dahi rəhbər təbrik məktubunda redaksiya əməkdaşlarının əməyini yüksək qiymətləndirərək onun gələcək fəaliyyət istiqamətini də göstərirdi: "Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində canlı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmlənməsi yolunda bütün qüvvələri səfərbər etmək, hər oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir".

Müstəqillik illərində "Sərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilmiş, ən son texniki avadanlıqlarla zəngin mətbəəsi və redaksiya binası tikilib istifadəyə verilmişdir. 2012-ci ildən qəzetin internet saytı fəaliyyətə başlamış, qəzetin 94-cü və 95-ci ildönümləri münasibətilə Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətində hökumət bəyannaməsi qəbul edilmişdir.

Əminik ki, Azərbaycan mətbuat tarixində xüsusi yeri olan, 104 illik şərəfli yol keçən "Şərq qapısı" qəzeti bundan sonra da dövlətçilik, maarifçilik, inkişaf və tərəqqinin simvolu, Naxçıvan tarixinin güzgüsü olaraq qalacaq, yaşayacaq, yaşatdıracaqdır. Azərbaycan Respublikasının Xalq rəssamı Tahir Salahovun dediyi kimi: "Qoy, "Şərq qapısı"nın fəaliyyəti rəssam palitrası kimi əlvan boyalarla, şair ilhamlı nadir sözlərlə, bəstəkar royalı kimi nikbin və coşqun nəğmələrlə zəngin olsun".

***Surə SEYİD,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Beynəlxalq həyat

# Təhsil – “yumşaq güc” aləti

**Müasir dünyada rəqabət artıq yalnız geosiyasi və iqtisadi sahələrlə məhdudlaşmır – təhsil də getdikcə daha çox ideoloji qarşıdurmanın mərkəzinə çevrilir. Gənc nəslin hansı bilikləri əldə etməsi, onlara hansı dəyərlərin aşılanması və hansı dünyagörüşünün formalaşması artıq milli təhlükəsizlik və qlobal güc balansı kontekstində əsas strateji məsələ hesab olunur. ABŞ hökumətinin Harvard Universitetinə əcnəbi tələbələrin qəbulunu məhdudlaşdırması ilə bağlı qərarı bu tendensiyanın açıq təzahürüdür.**



Ənənəvi olaraq təhsil şəxsi inkişaf, bilik mübadiləsi və kadr hazırlığı vasitəsi kimi qəbul olunurdu. Lakin qloballaşma, informasiya müharibələri və populizmin yüksəlişi fonunda təhsil ideoloji narrativlərin yayılması, milli identikliyin formalaşdırılması və siyasi təsir aləti kimi ön plana çıxır. Vaşinqtonun Harvard Universitetini “zorakılığı təşviq etməkdə, antisemitizmi yaymaqda və Çin Kommunist Partiyasının təbliğatını aparmaqda” ittiham edərək xarici tələbələrin qəbulunu dayandırması bu yanaşmanın bariz nümunəsidir.

Təhsil həm də “yumşaq güc”ün əsas alətlərindən biridir. Ölkələr təhsil proqramları, xarici tələbələrə verilən təqaüdlər və beynəlxalq akademik əməkdaşlıq vasitəsilə öz mədəniyyətlərini, dəyərlərini və ideologiyalarını qlobal miqyasda təbliğ edirlər. Bu strategiyanın məqsədi həm də ölkənin müsbət imicini formalaşdırmaq və gələcəkdə onun maraqlarını dəstəkləyə biləcək intellektual elita yetişdirməkdir. ABŞ, Çin, Almaniya və digər aparıcı ölkələr bu məqsədlə nüfuzlu universitetləri vasitəsilə qlobal istedadları cəlb etmək üçün müxtəlif təşəbbüslər həyata keçirirlər.

Harvard və Stanford kimi universitetlər dünyanın hər yerindən tələbələri cəlb etməklə güclü qlobal məzunlar şəbəkəsi formalaşdırırlar. Təkcə Harvard Universitetində bakalavr tələbələrinin təxminən 27 faizi 150-dən çox ölkədən gələn əcnəbilərdir. Stanford Universitetində bu göstərici 25 faizdir. Bu universitetlər yalnız təhsil ocağı deyil, həm də qlobal intellektual və ideoloji mərkəzlərə çevriliblər. Onların məzunları arasında ABŞ-ın səkkiz prezidenti və müxtəlif ölkələrdən olan 30-dan çox dövlət və hökumət başçısı yer alır. Stanfordun isə Google, Tesla və digər texnoloji nəhənglərin liderlərini yetişdirməsi bu təsirin miqyasını göstərir.

Lakin son illərdə qlobal miqyasda dərinləşən ideoloji ziddiyyətlər təhsili yeni mübarizə meydanına çevirir. Təhsili xaricdə alan gənclər çox vaxt həmin ölkənin dəyərlərinin daşıyıcısına çevrilirlər. Beləliklə, təhsil bir növ “ideoloji ixrac” funksiyası daşımağa başlayır. Dövlətlər anlayır ki, bu günün tələbələri sabahın liderləridir və onların dünya görüşü ölkənin gələcək siyasi, iqtisadi və mədəni trayektoriyasını müəyyən edə bilər. “Təhsil sisteminə nəzarət ölkənin gələcəyinə nəzarət deməkdir” fikri bu kontekstdə daha da aktuallaşır. ABŞ hökumətinin Harvardla bağlı qərarını da məhz bu prizmadan qiymətləndirmək olar.

Ancaq CNN-nin məlumatına görə, bu addım Çində ciddi rezonans doğurdu. Çin rəsmiləri və analitikləri bu qərarı ABŞ ilə Çin arasında artan geosiyasi və ideoloji gərginliyin təhsilə də sirayət etməsi kimi dəyərləndirirlər. Çin Xarici İşlər Nazirliyinin nümayəndəsi bildirir ki, “təhsilin siyasiləşdirilməsi qəbuledilməzdir” və ABŞ-ın bu addımı onun beynəlxalq imicinə zərbə vuracaq. Doğrudur, ABŞ məhkəməsi Ağ evin Harvard Universitetilə bağlı qərarının icrasını təxirə saldı, amma bu fakt əcnəbiləri daha ehtiyatlı olmağa vadar edəcək.

Pekinin narazılığı başadüşüləndir. Son 15 ildə Çin ABŞ-a ən çox tələbə göndərən ölkə idi. Yanız ötən Hindistan bu məsələdə önə keçdi. ABŞ universitetləri isə bu tələbələrdən həm akademik, həm də iqtisadi baxımdan ciddi şəkildə faydalanıblar. Lakin son illərdə ABŞ-da Çinə qarşı artan texnoloji və strateji narahatlıqlar bu əlaqələri təzyiq altına saldı. Beləliklə, təhsil sahəsindəki əməkdaşlıq da ABŞ-Çin rəqabətinin bir hissəsinə çevrildi.

Əgər bu tendensiya davam edərsə, dünya “təhsil ikiqütblüyü” ilə üzləşə bilər. Bir tərəfdə Qərb universitetləri, digər tərəfdə isə Çin və ona yaxın tərəfdaş ölkələrin təhsil ocaqları formalaşar. Bu isə bilik və innovasiyanın paylaşılmasını çətinləşdirər, qlobal intellektual inteqrasiyanı zəiflədər və gənc nəslin ideoloji parçalanmasına səbəb ola bilər. Təəssüf ki, bu tendensiyanın işartıları artıq özünü göstərməkdədir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Qayıdış sevinci



# Xoş gördük, ata evimiz!

**30 ilə yaxın erməni işğalında qalan ata-baba yurdunun həsrəti ilə yaşamış hər keçmiş məcburi köçkünün yuxusunda gördüyü, xəyallarında yaşatdığı bir ev vardı – doğulduğu, ilk addımlarını atdığı, böyüyüb boya-başa çatdığı ev. Biz dinc insanların bir zamanlar halal zəhməti, əllərinin qabarı ilə tikib-yaratdığı o evlərə düşmənin necə davrandığını bilirdik.**

Ancaq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz zəfər salnaməsi yazaraq torpaqlarımızı mənfur yağı tapdağından azad etdikdən sonra daha dəqiq məlum oldu ki, yüzminlərlə vətəndaşımıza öz evlərini yenidən görmək, orada yaşamaq qismət olmayacaq. Çünki Qarabağın, Şərqi Zəngəzurun hər qarışı erməni vəhşiliyinin, erməni vandalizminin qurbanına çevrilmiş, əksər yaşayış məntəqələri tamamilə dağıdılaraq yer üzündən silinmişdi. Dövlət başçısının dediyi kimi, elə bil bu ərazilərdən vəhşi qəbilə keçmişdi.

Ancaq sayı çox olmasa da “bəxti gətirən”, işğal müddətində ermənilər zəbt edib yaşadıqları üçün dağılmayan və illər sonra əsl sahiblərinə qucaq açan evlər də var. Xocalı rayonunun Ballıca kəndində yerləşən belə evlərdən birində Əzimovlar ailəsinin qonağı olduq, onların həyat hekayəsini dinlədik. Taleyinə iki dəfə məcburi köçkünlüyün acısını dadmaq yazılmış Teymur Əzimov ötən ilin sonlarında Böyük Qayıdış çərçivəsində öz ata yurduna qayıdıb. 13 yaşında zorla çıxarıldıqları evlərini salamat görəndə əyilib həyətin torpağından öpüb, sevincindən ağlayıb. Bizimlə söhbətində bildirdi ki, indi hər qarışından acılı-şirinli xatirələr boylanan bu doğma evdə yaşamaq ona yuxu kimi gəlir. Ballıcanı tərk etdikləri günü isə həmsöhbətim belə xatırladı:

– 1988-ci ildə ermənilər get-gedə azğınlaşmağa başlamışdılar. Xarici ölkələrdən çoxlu sayda silahlı daşnak gələrək kəndin yaxınlığındakı pioner düşərgəsinə yerləşmişdi və bizi gözləyən təhlükə getdikcə artırdı. Erməni qonşularımız da xəbərdarlıq edirdilər ki, qaçın, canınızı qurtarın, yoxsa bu gələnlər sizi öldürəcək. Hücumlar artdığına, evlərimiz atəşə tutulduğuna görə, həmin il sentyabrın 19-da (Qəribə təsadüfdür ki, Ballıca kəndi düşmən işğalından da məhz sentyabrın 19-dan 20-ə keçən gecə azad edilib – M.R.) atam Feyzulla Əzimov nənəmi, anamı, 4 bacımı, qardaşımı və məni götürüb Xocalıya apardı. Orada fin evində məskunlaşdıq. Elə bilirdik bu köç müvəqqətidir...

Ancaq onları Xocalıda daha böyük dəhşətlər gözləyirmiş. 1992-ci ilin fevral ayına kimi düşmənin mühasirəsində, hər an ölüm qorxusu altında yaşan Əzimovlar ailəsi qanlı soyqırımı gecəsi ikinci dəfə məcburi köçkün düşüblər. O dəhşətli faciədə ailə Tovuz adlı qızını, onun Aynur adlı azyaşlı körpəsini, daha neçə-neçə yaxınlarını itirib, neçə qohumlarının taleyindən isə bu günə kimi xəbər yoxdur. Məcburi köçkün kimi əvvəlcə Ağcabədi, daha sonra Oğuz rayonunda məskunlaşmış Teymur müəllim və ailəsi o ağır günlərdə hər zaman dövlətin qayğısını hiss ediblər. 2009-cu ildə bu qayğının daha bir bariz nümunəsi olaraq Goranboy rayonun Ağcakənd qəsəbəsində müvəqqəti olaraq yeni tikilmiş evlə təmin ediliblər. Oradan sonuncu köçləri isə bu dəfə geriyə, ata evinə istiqamət götürüb. T.Əzimov bildirdi ki, ən böyük arzusu olan Ballıcaya qayıtmağı dünyasını dəyişmək ərəfəsində atası da ona vəsiyyət edib:

– Təəssüf ki, Vətən həsrəti ilə dünyadan köçən yüzminlərlə məcburi köçkün kimi nə atam, nə də anam bu günlər görmədilər. 2014-cü ildə xəstə atam məni yanına çağırıb dedi, son günlərimdir, mənə söz ver ki, torpaqlarımızın işğaldan azad ediləndə Ballıcada tikdiyim evə qayıdacaqsan. İndi, çox şükür, atamın, anamın, şəhidlərimizin ruhu şaddır! Allah hər birinə rəhmət eləsin!

Həyat yoldaşı, oğlu ilə ata evində yaşayan Teymur Əzimov burada məskunlaşandan dərhal sonra məşğulluq məsələsi də həll edilib, bir vaxtlar şagird kimi təhsil aldığı orta məktəbdə indi müəllim kimi çalışır. Həyətyanı sahədə meyvə-tərəvəz əkib-becərirlər. Vaxt tapan kimi isə uşaqlığının keçdiyi dağları, dərələri qarış-qarış gəzib dolanır. Ballıcada yaddaşına əbədi həkk olunan xoş hadisələr də yaşayıb artıq. Qeyd etdi ki, bunlardan ən yaddaqalanı, sözsüz, Prezident İlham Əliyevlə görüşdə iştirak etməyi olub:

– Bizə bu xoşbəxt anları bəxş edən, qələbələrimizin memarı, möhtərəm Prezidentimizlə görüşdə iştirak etdiyim üçün özümü çox xoşbəxt sayıram. Bu, görüş bizim hər birimizin sevincinə sevinc qatdı. Dövlət başçısının mənimlə səmimi söhbətini isə ölənədək unutmayacağam.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

XQ-yə yazırlar

**Abad kənd yolundan tanınar, – deyiblər. Xaçmazın Həsənqala kəndi abad olsa da bu sözü onun yolu barədə demək olmur. Sakinləri illərdən bəridir ki, magistral xətdən ayrılan yolun dağılıb bərbad vəziyyətə düşməsindən əziyyət çəkirlər. 600-dən çox ailə təsərrüfatı, geniş əkin-biçin fəaliyyəti olan kəndə aparan 2 yolun asfalt örtüyü sıradan çıxıb, maşınların normal və rahat hərəkətinə imkan vermir. Bu azmış kimi, kəndə elektrik verilişi dirəkləri də sıradan çıxıb, təhlükə və qəzalar törədir.**

# Bir dön kəndin yoluna bax...

## *Söhbət Xaçmazın Həsənqala kəndindən gedir*



Həsənqalalılar problemi dəfələrlə rayon rəhbərliyinin diqqətinə çatdırıblar. Hətta 2024-cü ilin parlament seçkiləri zamanı kənddə əhali ilə görüş keçirən rayon rəhbərləri yaranmış vəziyyəti öz gözləri ilə görüblər. Bu görüşdə sakinlər kəndə gələn yolun bərbadlığını və orta məktəb binasının əsaslı təmirə ehtiyacı olduğunu rayon rəhbərliyinin nəzərinə çatdırıblar. Aradan aylar keçməsinə baxmayaraq, verilən vəddən bir səs-soraq yoxdur. Gözləri yollarda, qulaqları səsdə olan sakinlər çıxış yolunu “Xalq qəzeti”nə məktub yazıb verilən vədi rayon rəhbərliyinə xatırlatmaqda görüblər. Məktubu imzalayanlar arasında Vətən yolunda qurban vermiş şəhid ailələri, diqqət və qayğıya haqlı ehtiyacı olan qazilər də var. Onlar yazırlar ki, sonuncu dəfə 37 il əvvəl – 1988-ci ildə əsaslı təmir olunan, asfalt döşənən kəndin yolu indi tamamilə yararsız hala düşüb. Yerli sürücülər bu yolda avtomobillərin sürətlə sıradan çıxdığını söyləyirlər. Xaçmaz və Xudatın taksi sürücüləri isə Həsənqalaya müştəri aparmağı xatalı, faydasız iş hesab edib yaxalarını kənara çəkirlər. Payız-qış aylarında kəndə gələn yollarda nəinki nəqliyyatın hərəkəti, piyadaların gediş-gəlişi də müşkülə dönür.



Məktubda qeyd edilir ki, Azərbaycan hökumətinin bu gün işğaldan azad olunmuş Qarabağa, Qərbi Azərbaycana Böyük Qayıdış kimi nəhəng, ümummilli layihələrin icrası ilə mütəmadi məşğul olduğu onlara yaxşı məlumdur. Aydın məsələdir ki, ilk növbədə, bu bölgələrin yolları çəkilməli, problemləri həll edilməlidir. Bunlar böyük maliyyə vəsaiti tələb edən işlərdir. Elə buna görə də Həsənqala kimi bir kəndin kilometryarımlıq yolunu yerli imkanlar hesabına da təmir etmək mümkündür. Bunun üçün xeyriyyəçiləri işə cəlb etmək, yerli fermer və iş adamlarının yardımından yararlanmaq olar. Bu baxımdan imkanlı iş adamları, sahibkarları ilə tanınan rayonlarından biridir. Şübhəsiz, onlar rayon rəhbərliyinin müraciətini cavabsız qoymazlar.

Məktubda daha sonra deyilir ki, son 10–15 ildə yerli bələdiyyə kənd sakinlərinin köməyindən də istifadə etməklə bir neçə dəfə yolun çox dağılmış hissələrinə çınqıl töküb. Lakin bu, vəziyyəti o qədər də dəyişməyib.

Həsənqalalıların məktubu ilə bağlı bildirək ki, kənd yolu təkcə sakinlərin gündəlik gediş-gəlişi, ətraf aləmlə rahat əlaqəsi deyil, həm də sosial-iqtisadi inkişaf amilidir. Rahat yol olmadan nə turizmi, nə də kənd təsərrüfatını inkişaf etdirmək mümkündür. Yeri gəlmişkən, Həsənqala kəndi gözdən-könüldən iraq, ucqar dağ kəndi deyil. Kənd dünyaca məşhur, yay mövsümündə minlərlə xarici turistin üz tutduğu Nabran istirahət zonasına aparan magistralın düz üstündə yerləşir. Yəni, göz qabağında olan ərazidir.

Görünən odur ki, bəzi kənd yollarının mövcud durumu və onların təmiri yerli məmurları o qədər də narahat etmir. Elə buna görə də Həsənqala sakinləri məktubda xatırladırlar: “Prezident İlham Əliyev bir il əvvəl hökumətin iclasında “regionlarda daha çox kəndin yeni yollarla təmin ediləcəyini, bu prosesin bir dənə də təmirsiz və yaxşı vəziyyətdə olmayan kənd yolu qalmayanadək davam edəcəyini” dedi.

Həsənqala sakinlərinin göndərdikləri fotoşəkilləri yazıya əlavə etməklə ümid edirik ki, redaksiyamızın nəzarətdə saxladığı bu ürəkağrıdan vəziyyət tezliklə kökündən dəyişəcək. Redaksiyamız isə kəndə çəkilmiş yolun istifadəyə verilməsindən hazırladığı materialla oxucularımızı məlumatlandıracaq.

***İmran BƏDİRXANLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 108 (30802) 25 may 2025-ci il, bazar

Xoş duyğular ünvanı

# Gəncənin “Xan bağı” – “bağlar xanı”

## Əsrlərin yadigarını qoruyaq, qədrini bilək

**Yenə “Xan bağı”ndayam... Səhərin gözü yenicə açılıb. Sakit bir havadır. Xəfif, heç sezilməyən külək yalnız uca çinarların zirvəsindəki yarpaqları güc-bəla ilə titrədir. Yan-yana düzülmüş qoca çinarlar pıçıltısı yenicə yuvalarından boylanan quşların səsinə qarışır...**






Hər dəfə, “Xan bağı”nda rast gəldiyim adamlar, nədənsə orta yaşlı və yaşlı adamlardır. Biri salam verib keçir, digəri gülümsəyərək, sadəcə, başını tərpədir, başqa birisi öz aləmindədir, ətrafındakılar onu maraqlandırmır, nəsə hesablayır...

Parkda, az da olsa, cavanlar da var. Amma onların əksəriyyəti daha çox skamyalarda yayxanaraq telefonlarında nəsə axtarırlar. Yaşlılar isə gəzişir, parkı bəzən dörd dolanır, yorulanda buradakı çayxanaların birində pürrəngi çay içə-içə həmyaşıdları ilə söhbətləşirlər.

Əslində, “Xan bağı” indi gördüyümüz kimi olmayıb. Hələ 1727-ci ilə aid Osmanlı mənbələrinin birində göstərilir ki, bu bağın sahəsi 130 hektardır və burada 479 çinar, 404 sərv, 3554 meyvə ağacı var. Amma hanı indi? Çinarları barmaqla saymaq mümkündür. Meyvə ağaclarını axtarsan da tapa bilməzsən. Sərv də onun kimi.

Qeyd edək ki, 1804-cü ildə Gəncə xanlığı rus qoşunları və general Sisiyanov tərəfindən işğal olunan zaman şəhərin yalnız tikililəri deyil, həm də “Xan bağı” ciddi ziyan görüb. Dəhşətli top atəşlərindən sonra bağ və oradakı 400-500 yaşlı çinar ağaclarının bir qismi od tutaraq yanıb. Sonralar rus çarının fərmanına əsasən, bağ 1847-ci ildən Qafqaz sərdarı knyaz M.S. Vorontsovun şərəfinə adlandırılıb. O zaman dövlət bankından ayrılan vəsait hesabına Krımdan buraya 1 milyon 200 min ədəd müxtəlif növ ağac, meyvə, gül və bəzək kolları gətirilib. Qafqaz sərdarı M.Vorontsov tərəfindən 1846-cı ildə indiki yerinə köçürülən bağ rəsmi olaraq “Xan bağı” adlandırılsa da, “Sərdar bağı” və “Vorontsov bağı” kimi də tanınıb.

...“Xan bağı” bütün parklardan seçilir. Buranın ab-havası o qədər gözəl, ürəkaçandır ki, adam ayrılmaq istəmir. Təsadüfi deyil ki, “Xan bağı”nın oksigen ehtiyatı bol olduğu üçün onu “Gəncənin ağciyəri” də adlandırırlar.

Yuxarıda qeyd etdik. Bağ Qafqazda öz ərazisinə görə ən böyük bağ olub. Özünüz fikirləşin, 130 hektar nə deməkdir! İndi cəmi 3 hektar ərazini əhatə edir. Bağda 1873-cü ildə çar III Aleksandr tərəfindən imzalanan layihəyə əsasən şəhərin yeni baş planı hazırlanarkən növbəti dəfə dəyişiklik edilib. “Xan bağı”na yeni ağac və gül növləri, o cümlədən, katalon, ağ akasiya, kipris, Eldar şamı, nar, yapon xurması, çəhrayı çiçəkli oleandr, eləcə də digər ağac və gül kolları gətirilib.

Hətta deyilənə görə, çar III Aleksandr 1888-ci ilin oktyabrında qatarla Gəncəyə gəlib, onu böyük təntənə ilə qarşılayıblar və çar şəhərin yeni vağzalının açılışını edib. Həm də “Xan bağı”nı görmək istədiyini vurğulayıb. Lakin çara bildiriblər ki, hazırda orada böyük təmir-yenidənqurma işləri gedir və Aleksandr fikrindən daşınıb və o, qatarla Gəncədən Tiflisə yola düşüb. Təəssüf ki, o zaman da bağda ağacların böyük bir hissəsi kəsilib, tikinti işləri aparılıb.

...Hazırda “Xan bağı”nda 1588-ci ilə aid Gəncə qala divarlarının qalığı olan Şirəli bəy bürcü və Azərbaycanın ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarüstü abidəsi, Azərbaycanın ilk qadın Xalq şairi Nigar Rəfibəylinin abidəsi, açıq səma altındakı Yaşıl Teatr, müxtəlif fəvvarələr, son vaxtlar salınmış gözəl səkilər, gül-çiçək guşələri var. Şəhərin bir çox mədəni-kütləvi tədbirləri “Xan bağı”nda keçirilir.

“Xan bağı” illərin sınağına tab gətirərək bu günlərə gəlib çıxa bilib. Hərdən 4-5 əsr əvvəlki vaxtlarını xatırlayıb “yenə o bağ olaydı” desək də, buna da min şükür. Çünki o bir nağıldır, Gəncə tarixinin şirin bir nağılı...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

İdman

# “Kür” həndbol kubokunun qalibidir



**Kişi həndbolçuların Azərbaycan kuboku yarışı başa çatıb.**

"AHF Arena"da keçirilən final matçında "Bakı" və "Kür" qarşılaşıblar.

Mingəçevir həndbolçuları fasiləyə 1 xal üstün yollanıblar - 11:10. İkinci hissədə "Bakı" oyunda dönüş yaratmağa çalışsa da, istəyinə çatmayıb. Yekunda 20:19 hesabı ilə qalib gələn "Kür" ölkə kubokuna sahib çıxıb.

# Latviyada 5 cüdo medalı



**Latviyanın paytaxtı Riqada keçirilən cüdo üzrə veteranlar arasında Avropa çempionatının ikinci günündə Azərbaycan millisinin üzvləri 3 qızıl və 1 bürünc medal qazanıblar.**

M-4 yaş kateqoriyasında Babək Hacıyev (60 kq), Vaqif Kərimov (73 kq) və Emil Hüseynov (100 kq) bütün rəqiblərini məğlub edərək Avropa çempionu olublar.

M-3 yaş kateqoriyasında isə Samir İsmayılov (81 kq) üçüncü yeri tutub.

Qeyd edək ki, turnirin ilk günündə Fərhad Rəcəbli (M-8, 90 kq) də qızıl medala sahib çıxıb.

Hazırda yığma 5 medalla (4 qızıl, 1 bürünc) 37 ölkə arasında ümumi sıralamada 4-cü pillədə qərarlaşıb.

***Leyla QURBANOVA***
***XQ***

Futbol tariximizdən

# Eldar Əzimzadə kitabının son səhifəsində nə yazmışdı?

**Bu gün, 2025-ci il mayın 25-i dünya futbol tarixində ən parlaq şəxsiyyətlərdən biri azərbaycanlı hakim Eldar Əzimzadənin anadan olmasının 91-ci ili tamam olur. Onun istər keçmiş Sovet İttifaqında, istərsə də xarici ölkələrdə neçə-neçə prinsipial oyunu, o cümlədən, Moskva Olimpiadası – 80-in final görüşünü (Çexoslovakiya – ADR – 1:0), milli komandalar və klublar səviyyəsində rəsmi matçları yüksək səviyyədə idarə etdiyini hamı yaxşı bilir.**



Lakin E. Əzimzadənin 1998-ci ildə “Elm və həyat” nəşriyyatında 500 nüsxə tirajla çap olunmuş “Məhəbbətim mənim – futbol” kitabını heç də hər kəs əldə edə bilməyib. Müəllifin kitabın sonuncu səhifəsində yazdığı kimi, o, futbolda yaşadığı həyatla qürur duyub. Həmin səhifəni birlikdə oxuyaq:

“İndi dönüb keçilmiş yola nəzər salarkən idarə etdiyim bir çox oyun gözlərim qarşısında canlanır. Bu görüşlərə özümü çatdırmaq üçün qızmar yay günlərində, erkən baharda, soyuq payız aylarında təyyarə, qatar və avtobuslarda qət etdiyim məsafələrin hesabını aparsaydım, görəsən, necə bir göstərici alınardı? Bu zaman bəzən hava limanlarında saatlarla təyyarə gözləmiş, məsul görüşlər qarşısında yuxusuz gecələr keçirmiş, meydanda neçə-neçə prinsipial qərar qəbul etmişəm…

İndi bütün bunlar – onlarca şəhərin stadionlarında bilavasitə iştirakçısı və şahidi olduğum təkrarolunmaz məqamlar yada düşəndə, həmin hadisələrin artıq tarixə çevrildiyinə necə təəssüflənməyəsən?! Ömrümün ən yaxşı illəri əbədi məhəbbətim olan futbolda keçmiş, uzaq ellərdə, nəhəng stadionlarda, on minlərlə tələbkar tamaşaçı qarşısında bir-birindən çətin oyunları dəqiq və obyektiv idarə etmiş, futbol ictimaiyyətinin rəğbətini qazanmışam. Qazandığım bir də budur ki, futbol sayəsində, hakimlik sayəsində dünyanın 25-dən çox ölkəsində olmuş, onların görməli yerləri, adət və ənənələri haqqında az-çox təsəvvür əldə etmiş və hər bir ölkədən evə, doğma Bakıya müəyyən təəssüratla qayıtmışam.

Ən başlıcası, ən vacibi isə budur ki, hansı ölkədə, hansı şəhərdə olmağımdan, hansı komandaların oyunlarını idarə etməyimdən asılı olmayaraq, həmişə sevimli Azərbaycanın şərəfini uca tutmağa, onun futbol hakimliyi məktəbinin ən yaxşı nümayəndələrinin şanlı ənənələrinin layiqli davamçısı olmağa çalışmışam.

Bu səbəbdən də güman edirəm ki, futbolda yaşadığım həyatla fəxr etməyə, qürur duymağa, futbol mənim məhəbbətimdir, deməyə haqqım var”.

Mərhum hakimimizə bir daha hörmət və ehtiramla.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Fermerlərə mina təlimləri

**İşğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara köç edəcək fermerlər üçün Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) birgə təşkilatçılığı ilə keçirilən mina təhlükəsizliyi təlimləri başa çatıb.**




Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən mətbuata bildirilib ki, təlimlər Füzuli rayonu, Sumqayıt və Gəncə şəhərlərində təşkil olunub. Aprelin 9-da başlayan sessiyalara mayın 23-də Gəncə şəhərində yekun vurulub. 2025-ci il yaylaq mövsümü ərəfəsində, ümumilikdə, 12 mina təhlükəsizliyi təlimi keçirilib.

Son təlimlər Azərbaycan Dövlət Aqrar Universitetinin akt zalında baş tutub. ANAMA-nın mütəxəssisləri tərəfindən aparılan sessiyalarda azad olunmuş ərazilərdə davranış qaydaları, mina və partlamamış sursatların tanınması, təhlükələrin qarşısının alınması və şübhəli ərazilərdə düzgün hərəkət prinsipləri haqqında ətraflı məlumat verilib. Təlimlərdə iştirak edən fermerlərə müxtəlif növ sursat nümunələri göstərilib, vizual tanıma üçün praktik materiallar təqdim olunub. Həmçinin maarifləndirici təlimat kitabçaları, broşürlər, plakatlar paylanılıb.

***FİDAN***
***XQ***

HAVA

# Abşeronda dəyişkən buludlu bir bazar günü...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən xəbərə görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi arabir güclənəcək.**

Havanın temperaturu gecə 15-17° isti, gündüz 24-27° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-10° isti, gündüz 14-19° isti olacaq.

**Q.QASIMOV**
**XQ**



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 987
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00